№ 258 ISSN 1027-3875 30 noyabr 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



Arif Məlikov - 75

ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ 4



Knyaz ASLAN
NUR DƏNİZİ VƏ YA DƏDƏ CAMAL MÖCÜZƏSİ 7



Elmira Əliyeva 13
"ÖZÜMÜ XOŞBƏXT SAYIRAM..."



Bəhlul ABDULLA
"KİTABİ-DƏDƏ QORQUD"DA OĞUZ QADIN TİPİ: SELCAN XATUN 17



НИЛУФЕР
СТАРЫЙ АЛЬБОМ 26



ELNUR MƏMMƏDLİ İLİN İDMANÇISI ELAN OLUNMUŞDUR 35



UNİVERSİTƏ XƏBƏRLƏRİ

LİTSEYDƏ GÖRÜŞ

Noyabrın 11-də Sumqayıt şəhəri Nizami adına 11 saylı Texniki və Təbiət Elmləri litseyində Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı ilə görüş keçirildi. Görüşü giriş sözü ilə litseyin direktoru əməkdar müəllim, Prezident təqaüdçüsü Minarə Tahirova açdı, Hamlet İsaxanlını və onunla birlikdə litseyə qonaq gələn professor Camal Mustafayevi və Xəzər Universitəsinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbinin direktoru Nailə xanım İsayevanı salamladı, Hamlet İsaxanlı haqqında bəzi məlumatları şagird və müəllimlərin nəzərinə çatdırdı.

Professor Camal Mustafayev Hamlet İsaxanlının yaradıcılığı haqqında geniş söhbət açdı, daha çox onun poeziyası və təhsil-elm sahəsində quruculuq işlərindən bəhs etdi.

Hamlet İsaxanlı uşaq yaşlarında, orta məktəb illərində elmin müxtəlif sahələrinə olan marağından söhbət açdı. Təbiət elmlərinin xüsusiyyətləri, əhəmiyyəti və gözəlliyini vurğuladı. Şəxsiyyətin formalaşmasında humanitar elmlərin oynadığı roldan danışdı. Sonra ali məktəb həyatı, elmi fəaliyyətə başlaması, xarici ölkələrə səfərləri və s. haqqında şagird və müəllimlərə çox maraqlı və ibrətamiz məlumatlar verdi.

Nailə xanım İsayeva öz qısa çıxışında litseyin nümunəvi fəaliyyətini qeyd etdi, litseylə "Dünya" məktəbi arasında əlaqələr qurmaq fikrini vurğuladı.

Şagirdlər Hamlet İsaxanlının şeirlərini söylədilər. Onların xahişi ilə Hamlet İsaxanlı da öz şeirlərindən bir neçəsini ifa etdi.

YÖK BAŞKANININ REKTORLARLA GÖRÜŞÜ

Noyabrın 13-də Azərbaycanda səfərdə olan Türkiyə Cumhuriyyəti Yüksek Öğretim Kurulu (YÖK) başkanı Yusuf Ziya Özcan və onun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan universitetlərinin rektorları ilə görüşdü. Müzakirədə çıxış edənlər arasında Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da vardı.

"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ



Noyabrın 25-də "Elm və sənət məclisi"nin növbəti – iyirmi ikinci məşğələsi oldu. "Fridrix Nitsşe – tarixin ən çılğın filosofu" mövzusunda keçirilən məşğələni Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı açaraq, XIX əsr alman filosofunun fəlsəfi görüşləri haqqında ümumi məlumat verdi.

Xəzər Universitəsinin müəllimi Ağalar Məmmədov və Universitənin Fəlsəfə departamentinin müdiri Mail Yaqubov F. Nitsşenin elmi-fəlsəfi yaradıcılığı haqqında məruzə etdilər.

Məruzələr ətrafında müzakirələrdə fəlsəfə elmləri doktorları Niyazi Mehdi, Rəhman Bədəlov, tarix elmləri doktorları Cəmil Həsənli, Süleyman Əliyarlı, Güllü Yoloğlu, Xəzər Universitəsi Lüğət və Ensiklopediya Mərkəzinin direktoru, əməkdar müəllim Tofiq Abasquliyev, filologiya elmləri doktoru Firudin Cəlilov, şair-publisist İmir Məmmədli çıxış edərək, Nitsşe fəlsəfəsinin müxtəlif cəhətlərindən, fəlsəfi terminologiya, fəlsəfi ədəbiyyatın dili və s. məsələlərdən danışdılar.

"ELM VƏ SƏNƏT MƏCLİSİ (1-10)" KİTABININ TƏQDİMATI



Noyabrın 25-də Xəzər Universitəsinin nəşriyyatında nəfis tərtibatla çapdan çıxmış "Elm və sənət məclisi (1-10)" kitabının təqdimat mərasimi olmuşdur. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı təqdimat mərasimində çıxış edərək, 2006-cı ilin oktyabr ayından etibarən müntəzəm fəaliyyət göstərən "Elm və sənət məclisi"nin əhəmiyyətindən, məclisin artıq iyirmi iki məşğələsinin uğurla keçirildiyindən və elmi ictimaiyyətdə, sənət adamları arasında maraq doğurduğundan danışdı. Qeyd etdi ki, nəzərdə tutulduğu kimi, məclisin on məşğələsinin materiallarından ibarət ilk kitab bu gün oxucuların mühakiməsinə verilir və sonrakı on məşğələni ehtiva edən ikinci kitab da çapa hazırlanacaqdır.

Oxucularda həm "Elm və sənət məclisi", həm də kitab haqqında daha dolğun təsəvvür yaratmaq üçün professor Hamlet İsaxanlının kitaba yazdığı ön sözü təqdim edirik.

ELM VƏ SƏNƏT MƏCLİSİ – ÜNSİYYƏT EHTİYACI

Elmi tədqiqatları və sənət əsərlərini ayrı-ayrı insanlar təklikdə yazıb-yaradır, uzun illər öz içində, beynində, ürəyində gəzdirir, bəsləyib yetişdirir və bir gün, sanki qeyri-ixtiyari surətdə, qəflətən üzə çıxarır. Elm və sənət nümunələri bəzən kiçik bir kollektivin, bir neçə nəfərin birgə səyləri nəticəsində də meydana gələ bilir. Bu halda da, yaradıcı qrupun üzvləri ayrı-ayrılıqda düşüncələrə dalır, öz iştirakını fərdi bilik, qabiliyyət və enerjisi hesabına təmin edir, ümumi məsələnin həlli isə, əlbəttə, yenə də ünsiyyət, birgə təhlil və müzakirələr yolu ilə baş tutur.

Elm və sənət adamları, ümumiyyətlə yaradıcı, ziyalı insanlar həmişə öz aralarında ünsiyyətə ehtiyac duymuş, buna həmişə çox əhəmiyyət vermişlər. Yeni kəşfimizi, yeni ideyamızı, yeni əsərimizi, içimizdə qovrulan düşüncələrimizi bizə bənzər birinə, bizi anlayacaq birinə söyləmək, sevinc və qayğımızı bölüşmək ehtiyacı danılmazdır. Peşəkar bir insanla ünsiyyətdə olmaq, onunla söhbətləşib fikir mübadiləsi etmək, onu yeni tapıntı və ya orijinal fikirlə sevindirmək xoş və gözəl işdir. Onu sevindirdiyimiz, yaxşı mənada təəccübləndirdiyimiz üçün özümüz də sevinirik, müsbət enerji toplayırıq, ruhlanırıq, həzz alırıq... Peşəkar bir insanın tənqidi fikirləri və məsləhəti bizim daha dərinlərə baş vurmaq, daha əhatəli olmaq, həqiqətə daha yaxın olmaq imkanımızı artırır.

Müzakirə olunan mövzu, elm və ya sənət sahəsi üzrə, mümkündür ki, mütəxəssis olmayan, amma geniş düşüncəli və həssas yaradıcı insanın verdiyi gözlənilməz suallar, onun öz sahəsindən qaynaqlanan fərqli görüş, fikir və münasibət də bizi düşündürə bilir, bizə təsir edir. Əlbəttə, yeni olanı bilmək ehtirası, yeni olanı mütəxəssislərin öz ağzından eşitmək həvəsi və maarifçilik istəyi də yaradıcı insanları bir yerə toplayan mühüm amillər sırasındadır.

Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasında oxuduğum və sonralar orada, eləcə də Steklov Riyaziyyat İnstitutunda tədqiqatla məşğul olduğum zamanlar elmi fəaliyyətdə ünsiyyətin nə qədər mühüm olduğunu anladım. Məşhur alimlərin, aspirant və tələbələrin bir yerə toplaşdığı həftəlik elmi seminarların dünyada görülən mühüm işlərdən xəbər tutmaq, maraqlandığımız elmi problemləri təhlil etmək, elmdə yeni yollar açan insanlarla birlikdə müzakirələrə qatılmaq baxımından əvəzi və alternativi yox idi. Elmi məktəb deyilən fenomeni biz birinci növbədə məhz bu seminarların varlığı və qeyri-adi gücündə görür və hiss edirdik.

Sosialist blokunun dağılması, maddiyyətin yeni kapitalist münasibətləri əsasında fövqəladə güc qazanması və onun yaratdığı qarışıq hisslər, qloballaşmanın mövcud mənəvi dəyərləri alt-üst etməsi insanları, o cümlədən yazıb-yaradan zümrəni çaş-baş saldı. Elmi tədqiqatlara maraq azaldı, təhsil sistemi sistemsizliyə düçar oldu. Ziyalıların, elm adamlarının və müəllimlərin, mədəniyyət işçilərinin "ağıllı" bir yerə yığışmağa, dərdləşməyə ehtiyacı artdı. Giley-güzardan təhlilə keçmək, adi dərdləşmədən araşdırmalara keçmək, elmi-mədəni mühiti canlandırmaq, dünya elmində, sənətdə baş verənlərdən xəbər tutmaq – günümüzün tələbi, ruhumuzun təməli olan bu arzuların həqiqətə çevrilməsinə necə kömək edək?

2006-cı ilin yaz-yay aylarında Elm və Sənət Məclici təşkil etmək, heç bir sahə məhdudiyyəti qoymadan vacib hesab etdiyimiz problemləri müzakirəyə çıxarmaq barədə fikrimiz qətiləşdi. Hər dəfə bir və ya iki mütəxəssisin məruzəsini dinləmək, onları sual atəşinə tutmaq, söz, fikir söyləmək istəyənləri dinləmək, məruzə və müzakirənin nəticələrini əvvəlcə "Xəzər Xəbər" dərgisində, sonra isə qruplaşdırıb kitab şəklində nəşr etmək qərarına gəldik. 2006-cı il oktyabrın 10-da Xəzər Universitəsinin Konfrans mərkəzində birinci məclis baş tutdu. Həm Azərbaycandan, həm də müxtəlif ölkələrdən mütəxəssisləri, elm və sənət adamlarını məruzə üçün dəvət etməyə başladıq. Qısa zamanda Elm və Sənət Məclisimiz tanındı və sevildi.

Canlı danışıq tərzini olduğu kimi saxlamağa çalışdığımız bu birinci kitabda ilk on məclisin materialları çap olunur.

Hamlet İSAXANLI

TƏLƏBƏLƏRLƏ GÖRÜŞ



Noyabrın 27-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda universitənin rektoru, professor Hamlet İsaxanlının birinci kurs tələbələri ilə ənənəvi görüşü olmuşdur. Tanışlıq məqsədilə Hamlet İsaxanlının həyat və fəaliyyəti haqqında tələbələrə məlumat verildikdən sonra rektor çıxış edərək, Xəzər Universitəsinin təhsil və elm sahəsində qazandığı uğurlardan danışdı, gələcək planlardan söz açdı, tələbələrin təhsili ilə əlaqədar tövsiyələrini bildirdi. (*Görüşdən geniş məlumat jurnalın növbəti nömrəsində dərc olunacaq*).

ƏCNƏBİ TƏLƏBƏLƏRLƏ SÖHBƏT

Noyabrın 28-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı əcnəbi tələbələrlə növbəti dəfə görüşdü. Görüşə toplaşan tələbələri salamladıqdan və hər biri ilə tanış olduqdan sonra rektor onların rəy və təkliflərini dinlədi. Neft mühəndisliyi ixtisasında təhsil alan tələbələrdən Harish Velakkathal Venugopal, Antony Paul, tibb fakültəsinin tələbələrindən Anandhagopal Raghuraman, Solomon Kingsly, Amit Akhhil, Salim Khan, Javaid Yatoo tələbələrin problemlərindən danişdılar və suallar verdilər.

Tələbələri maraqlandıran məsələlərlə əlaqədar rektor Hamlet İsaxanlı və Əcnəbi alimlər və tələbələr şöbəsinin müdiri Xumar Hüseynova izahat verdilər.



BQXK-nın BAKI NÜMAYƏNDƏLİYİNDƏ TƏLƏBƏLƏR ÜÇÜN SEMİNAR

Xəzər Universitəsinin Hüquq fakültəsinin on beş nəfər tələbəsi beynəlxalq humanitar hüquq müəllimi Səadət Novruzovanın rəhbərliyi altında Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı nümayəndəliyində universitəmizin tələbələri üçün təşkil edilmiş seminarda iştirak etmişlər.

Seminarı BQXK-nın Bakı nümayəndəliyinin ali məktəblərlə iş üzrə əlaqələndiricisi Vüqar Məmmədov və komitənin digər nümayəndələri aparmışlar.

Seminarda BQXK-nın yaranma tarixi, məqsədləri, keçdiyi tarixi yol və qarşıda duran vəzifələr barədə tələbələrə ətraflı məlumat verilmiş, "Beynəlxalq hümanitar hüquq" anlayışı, onun məqsədləri, tətbiqi, digər hüquq sahələrindən fərqli cəhətləri geniş izah edilmişdir. Sonra mütəxəssislər tələbələrin suallarını cavablandırmışlar.

Seminarda, həmçinin, əsirlərin azad edilməsi, bu sahədə aparılan işlər, vərəm xəstəliyi, bu xəstəliyin yaranma və yayılma səbəbləri, xəstəxanalarda bu xəstəliyin qarşısının alınması məqsədilə görülən işlər, bu istiqamətdə maarifləndirmə tədbirləri haqqında tələbələrə ətraflı məlumat verilmişdir.

Yüksək səviyyədə təşkil olunmuş və interaktiv metodda keçən seminarın sonunda Xəzər Universitəsinin Hüquq fakültəsinin tələbələrinə kitablar hədiyyə olundu.

Knyaz ASLAN
Bakı Dövlət Universitetinin dosenti,
pedaqoji elmlər namizədi

NUR DƏNİZİ VƏ YA DƏDƏ CAMAL MÖCÜZƏSİ

Başkeçidin dağlarıdır bu dağlar!

...1999-cu ilin apreli xoş gəlmişdi. Yazın oğlan çağı ələdüşməz səfər üstəydik. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının təşəbbüsü ilə bu ali təhsil ocağının nəşriyyatı görkəmli filosofumuz, professor Camal Mustafayevin "İdrakın şeiriyyəti" kitabını nəfis şəkildə nəşr etmişdi. İndi həmin kitabın təqdimat mərasimini keçirmək üçün Bakıdan Qarayazıya – Dədə Camalın doğma kəndi Kosalıya gedirdik. Dəstəmiz elimizin ağsaqqalı, akademik Kamal Talıbzadə başda olmaqla sanballı ziyalılardan ibarət idi. Kamal müəllimin elə Bakıdan çıxaçıxda başlayan şirin söz-söhbəti canımıza yağ kimi yayılırdı...

Şamaxını keçib dolanbac yollarla dağ yuxarı qalxdıqca ətraf aləm rəngbərəng xalı kimi göz önündə canlanırdı. Qartalların qanad çaldığı bu yüksəklikdən aşağı boylanmaq, gördüyümüz təbii mənzərələri könüldolusu yaddaşımıza hopdurmaq üçün ayaq saxlayası, daha doğrusu, maşınlardan düşəsi olduq. Əsrarəngiz təbiətin önündə hamımız heyrət içindəydik. Bu möcüzəli mənzərəni özünəməxsus maraqla, son dərəcə vurğunluqla süzən Dədə Camal Şamaxı zirvəsindən heyran-heyran Babadağa sarı boylanıb qəfildən üzünü mənə tutdu: «A şair, bu dağlar Başkeçidin dağlarına yaman oxşayır. Rəssam olsaydı, şəklini çəkərdi», – dedi. Söz məni tutdu... Bu müraciətdən sonra cavabsız qalmaq olardımı?! Çox keçmədi ki, elə oradaca bədahətən yaranmış "Başkeçidin dağlarıdır bu dağlar" qoşmasını söyləmək üçün ustadlardan izn aldım:

Dədə Camal, bənzətmənə
vuruldum,
Başkeçidin dağlarıdır bu dağlar!
Göylər kimi bulanmışdım,
duruldum,
Başkeçidin dağlarıdır bu dağlar!

Xatirədir hər diki, hər yamacı,
Şiş qayalar ya zəridir, ya tacı.
Bir-birinə həm qardaşdır,
həm bacı,
Başkeçidin dağlarıdır bu dağlar!

Həmin qoşmanın son bəndi beləydi:

Hünərin var, yaddaşını qurdala,
Gəl-gəl deyər hər çəmənlik, hər
tala.
Knyaz Aslan kaş dönəydi qartala,
Başkeçidin dağlarıdır bu dağlar!..
Başkeçidin dağlarıdır bu dağlar!..



Şeirimin bəyənilməsi məni əməlli-başlı ruhlandırmışdı. Belə ki, səfər boyu ilhamım çağlayan bulağa döndü, neçə-neçə şeirə həyat verdi.

Bu hadisəni nahaqdan xatırlatmadım. Başqa sözlə, özümü tərifləmək, hünərimi göstərmək üçün yada salmadım. Əslində bu əhvalatın məğzində Camal Mustafayevin aqilliyi, müdrikliyi, ustadlığı dayanır! Mahir psixoloq və səriştəli pedaqoq olan alimin bu arifanə işarəsi elə o dəmdə mənim timsalımda yaradıcı bir gəncin potensial imkanlarını üzə çıxarmağa şərait yaratmışdı. Üstəlik, güvənib inandığı şəxsi bir daha gizli sınağa, aşkar imtahana çəkmək məqamı yetişmişdi...

"Artıq adamlar" və... oğurlanmış mühazirə dəftəri

Uzun illər görkəmli şairlərlə dostluq-yoldaşlq etmiş, söz adamlarının iç dünyasına dərindən bələd olmuş Camal müəllim bu kəlməni sözgəlişi deməmişdi. O çox gözəl bilirdi ki, ana təbiətin rəssamlıq qüdrətindən mütəəssirlənmiş qələm yiyəsinin ürəyini tərpətmək üçün balaca bir təkan lazımdır.. Əgər ilham varsa, mütləq özünü göstərməlidir...

Camal müəllim bax bu cür duyğusal insan, həssas şəxsiyyət, hər şeyin mahiyyətinə varan incəqəlbli filosofdur...



Bunu da mütləq vurğulamalıyam ki, sağlıqlarında klassikləşmiş, əfsanələşmiş, nağıllaşmış, dədələşmiş hər iki ağsaqqalımıza Qarayazıda tükənməz el sevgisi bəslənildiyini görəndə ürəyimiz dağa dönmüşdü:

Bəxtimizdə qoşa zərdi,
Xoş arzudu, şad xəbərdi.
El hörmətli bəxtəvərdi,
Dədə Kamal, Dədə Camal!..

Hər ikisi göyün nuru,
Dağ vüqarı, bağ qüruru!
Çeşmə kimi gözəl, duru,
Dədə Kamal, Dədə Camal!..

Bu sətirləri yaza-yaza xəyalım bir az da uzaqlara qanadlandı...

XX yüzilliyin səksəninci illərinin əvvəli... Hələ zəng içəriyə vurulmasa da, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri əsas korpusun 4-cü mərtəbəsindəki 401-ci otaqda sakitcə əyləşib ilk dəfə onlara "Etika" fənnindən mühazirə oxuyacaq müəllimi – məşhur filosofu gözləyirlər. Yuxarı kursların tələbələrindən onun haqqında çox şey öyrənmişik. Üstəlik, şəxsən tanış olmasaq da, mən onun imzasını yaxşı tanıyıram: şairlərin kitablarına yazdığı ön sözlərin, mətbuatda çıxan ədəbi-tənqidi yazılarının bəlkə də hamısını oxumuşam və uzaqdan-uzağa qələminə, şəxsiyyətinə, təfəkkür genişliyinə, təhlil üslubuna heyran qalmışam. Bir də fakültəmizdə mütəmadi keçirilən ədəbi-bədii gecələrdə, şair və yazıçılarla görüşlərdə aydın və səlis çıxışlarını qanıma-canıma hopdurmuşam. Həmin tədbirlərdən bəzilərində mən də çıxış etmişdim, amma onun yadında qalacağıma gümanım gəlmirdi.

Dərsqabağı çox narahat və həyəcanlıydım, səbəbi də bu idi: mühazirə otağında 4 qrup, hər qrupda 25 nəfər, yəni cəmi 100 nəfər olmalıdır. Amma bu dərsə gələn tələbələrin sayı bir az çoxdur! İş burasındadır ki, müxtəlif fakültələrin yuxarı kurs tələbələrindən bir çoxu arxa sıralarda əyləşərək, Camal müəllimin mühazirəsinə qulaq asmaq istədiklərini və bu məsələni açıb-ağartmamağı qrup nümayəndəsi kimi məndən xahiş edib. Bəs mən neyləyim? Etiraz etsəm, aramızda inciklik yaranacaq. Dekanlığa çatdırmağı isə özümə sığışdırmıram. Bəs birdən yoxlama gəlib bu məsələnin üstünü açsa, mənim axırım necə olacaq?!

Bu gözlənilməz vəziyyətdən çıxış yolu axtarırdım ki, qapı açıldı və nurani simalı professor auditoriyaya daxil oldu. Gülümsər baxışlarla hamını süzdü, "Ay maşallah, hamı gəlib ki!" – dedi və gözləmədiyim halda üzünü mənə tutub: "Səni tanıyıram, istedadlı oğlansan, bütün qrupların jurnalını yaz, gəlməyən varsa "qayıb" qoyma, mən qol çəkərəm" – dedi. Tələmtələsik: "Camal müəllim, gəlməyən yoxdur!.." – deyə cavab verdim. Az qaldı deyəm ki, hələ otaqda artıq adamlar da var...

Beləcə, professor Camal Mustafayevin, sadəcə Camal müəllimin dərslərinin sehrinə düşdük. Çox maraqlı dərs keçirdi desəm, fikrimi düzgün ifadə etmiş olma-

ram. Camal müəllimin mühazirələrini hava kimi ciyərlərimizə çəkir, su kimi içirdik. Onun dərslərində dünyanın məşhur filosofları bizim auditoriyanın ən əziz qonaqları olurdu. Ən maraqlısı və bizə qəribə görüneni də bu idi ki, başqa müəllimlərdən fərqli olaraq, Camal müəllim sinədəftər idi, bütün mühazirələrini birbaşa söyləyirdi, qədim yunan, Roma, Çin, rus və başqa xalqların filosoflarının yaradıcılığını əzbər bilirdi. Azərbaycan filosofları ilə Aristotel, Platon, Sokrat, Hegel, Kant və başqaları arasında paralellər aparır və bizi heyrətləndirirdi: Azərbaycan filosofları Bəhmənyar, Nizami, Nəsirəddin Tusi, Nəsimi, Mirzə Fətəli Axundov kimi azman şəxsiyyətlərin əsərlərindəki elə incə məqamları çözələyirdi ki, onları nə kitabdan oxumuşduq, nə də bir kimsədən eşitmişdik... Heç bir mühazirəsi o birinə bənzəmirdi: yeni elmi faktlar, yeni baxışlar, yeni müqayisələr, yeni nəticələr... Dərsdən sonra yuxarı kurs tələbələri də bizə deyirdilər ki, ötən illərdə Camal müəllim onlara filan mühaziräni tamam başqa maraqla oxuyubmuş, indi lap gözəl alınıb: "Deməli, təkrar gəlməyə dəyərmiş!.. Amma heyif ki, özümüz sual verə bilmirik, yoxsa bizi tanıyar..."

Hə, elə bu məqamdaca deyim ki, həmin "artıq tələbələr"in sayı semestrin sonunacan artmaqda, mənim isə "ifşa olunmaq" təhlükəsi ilə bağlı həyəcanım çoxalmaqda davam edirdi. Amma şükür, hər şey əla qurtardı! Nə çuğullayan oldu, nə də dekanlıq xəbər tutdu...

Aradan nə az, nə çox, düz 15 il keçəndən sonra – 1999-cu ilin yazında Kosalı kəndində professor Camal Mustafayevin "İdrakın şeiriyyəti" kitabının təqdimat mərasimində çıxış edərkən illər uzunu gizli saxladığım həmin sirri özüm açmaq qərarına gəldim. Ağsaqqal alimimiz və tədbirə toplaşanlar qarşısında etiraf etdim o illərin gizlinlərini... Bu etirafı eşidənlər Camal müəllimin ucalığını, ustadlığını, müəllimliyini alqışladılar. Camal müəllim isə özünəməxsus tərzdə



mənalı baxışlarla məni süzüb gülümsədi. Nədənsə, mənə elə gəldi ki, Camal müəllimin elə o vaxtlardan mənim bu sirrimdən xəbəri varmış, amma açıb-ağartmırmış...

Daha bir məqam. Universitetin aşağı kurslarında mühazirə mətnlərini yazmağa yamanca həvəsliydim.

Dərsdə müəllimlərin dediklərini sürətlə qeyd edir, evdə rəngli qələmlərlə onları təmiz dəftərə köçürürdüm. Hətta xanım müəllimlər belə mənim bu səliqəmə həsədlə baxır, o biri tələbələrə nümunə göstərirdilər. Başqa bir seçimim də vardı: əgər hər hansı bir müəllimin mühazirəsi dərslikdəki mətnləri təkrarlayırdısa, daha onları yazmaqdan vaz keçirdim. Mənə təzətər mühazirələr ləzzət verirdi! Professor Camal Mustafayevin mühazirələri istisna idi. Dəqiq desək, ən azı sovet adamı, sovet alimi, sovet professoru deyildi. Dövrün tələbləri, kommunizm ideologiyası, sovet təbliğat maşını, marksizm-leninizm klassiklərinin əsərləri qalırdı bir yana, bu orijinal alim milli ideologiyadan, ana dilinin zərifliyindən, azərbaycanlı filosofların dahiliyindən şövqlə söz açır, bizə milli mədəniyyətimizlə fəxr etməyin əlifbasını həvəslə öyrədirdi!.. İndi fikirləşirəm ki, nə yaxşı o zaman dovşanı arabayla tutan sovet kəşfiyyatı Camal Mustafayev kimi təpədən-dırnağacan millilik ovqatı üstündə köklənmiş ziyalılarımıza toxunmağa macal tapmayıb!.. Yoxsa, axırımız necə olardı?..

Hamı kimi mən də professor Camal Mustafayevin mühazirələrini son sözünə kimi ardıcıl yazmağa çalışırdım. O, mühaziräni diqtə ilə yazdırmadığına görə təkrar soruşmaq imkanımız yox idi. Ona görə də, kimin hansı hissələri



yazmalı olduğunu öz aramızda bölüşdürmüşdük. Dərsdən sonra bir yerə toplaşar, yazdıqlarımızı tutuşdurar, buraxılmış hissələri bərpa edər, mühazirənin tam mətnini hazırlayardıq. Həmin səliqəli dəftəri yataqxanada saxlayırdım.

Fikrim bu idi ki, nə vaxtsa möhtərəm müəllimimə təqdim edər, öz mənəvi borcumu bir az ödəyə bilərdim. Amma günlərin bir günü həmin dəftəri otaqdan oğurladılar. Tələbə dostlarımla birgə mühazirə ogrusunu təxmini müəyyənləşdirsək də, dəftərin izinə düşsək də, onu görmüş şahidlərlə üzləşdirsək də, oğru daş atıb başını tutdu... Bu gün də o dəftərin sorağındayam və qəlbimin dərinliklərində onun tapılacağına ümidliyəm...

Dərsdən sonrakı... həyat və ədəbiyyat dərsləri

Professor Camal Mustafayevin başqa müəllimlərdən fərqli cəhətləri, üstün xüsusiyyətləri bizi gündən-günə ona daha da isindirirdi. Belə demək mümkünsə, onun özü elə birinci dərsdən tələbələrə mehribanlıq göstərir, tənəffüs zamanı (o vaxtlar hər 45 dəqiqədən sonra 5 dəqiqəlik, bir dərsdən sonra isə 10 dəqiqəlik tənəffüs olurdu) bizi söhbətə tutur, bir növ pedaqoji ustalığını işə salaraq, dünyagörüşümüzü, düşüncə tərzimizi sınağa çəkirdi.

Açığı, Camal müəllimin nüfuzu, titulu, ad-sanı qarşısında əvvəllər çəkinir, çox yaxınlaşmağa cürət etmirdik. Bizi çəkindirən həm də digər elmi dərəcəli və ya dərəcəsiz müəllimlərdən çoxunun tənəffüslərdə tələbələrdən qaçması, səmimi ünsiyyət üçün qəsdən lazımi şərait yaratmaması, araya keçilməz pərdə (daha doğrusu, dəmir sipər) salması faktı idi. Professorlar qalsın bir yana, adicə laborantlardan belə bəzi yoldaşlarımız elə üz görürdülər ki, tələbə olmağın peşmanlığını çəkirdilər... Camal müəllim isə sanki ayrı aləmdən gəlmişdi. Zəng vurulan kimi: "Gəlin, ay cavanlar, gəlin görək nə düşünürsünüz, hansı çətinliklərinizvar?" – deyə, özü bizimlə mənəvi bir körpü yaradırdı. Onunla söhbətdən doymaqmı olardı?!

İş belə alındı ki, zaman keçdikcə o dövrdə tez-tez təşkil olunan kütləvi tədbirlərə Camal müəllim seçib-sonaladığı tələbə gənclərdən bir neçəsi ilə birgə getməyə başladı. O seçilmişlərin arasında özümü də gördüyüm üçün bu gün hədsiz iftixar hissi keçirirəm! Yolboyu bizə nələrdən danışmırdı o?! Cəmiyyətdə baş verən haqsızlıqlardan tutmuş ədəbi mühitdəki proseslərə qədər... Onu bizə sevdirən bütün problemlərə fərqli mövqedən yanaşması, mahir bir filosof kimi məsələlərin mahiyyətini məntiqi baxımdan dəqiqliklə açması, hadisələrin sonunu idrakının gücü ilə düzgün proqnozlaşdırması idi.

Xüsusilə filarmoniyada, Aktyor evində, Akademik Dram Teatrında və başqa mədəniyyət ocaqlarında şair və yazıçıların yaradıcılıq gecələri keçirilərkən professor Camal Mustafayevin, bir qayda olaraq, gurultulu alqışlarla qarşılanan çıxışlarını səbrsizliklə gözləyərdik. Ən maraqlısı da bu idi ki, tədbir başa çatandan dərhal sonra Camal müəllim onu ziyafətə dəvət edən hörmətli şəxslərə çox vaxt səmimi minnətdarlığını bildirər, "mənim bu cavanlarla bir az söhbətim var" – deyib, üzünü Sahil bağına tutardı. Dəniz kənarında gəzişərkən onun bayaqkı tədbirdəki yazıçıların və natiqlərin çıxışlarını çox dəqiqliklə təhlil etməsi və dəyərləndirməsi ürəyimizcə olardı. Bax, bü-

tün bunlar əsl həyat və ədəbiyyat dərsləri kimi biz nəslin mənəvi inkişafında mühüm rol oynayırdı. Təəssüf ki, o zaman təbiət qoynundakı bu əvəzsiz mühazirələri köçürüb saxlamaq üçün adicə bir diktofonumuz belə yox idi...

... Bir dəfə Azərbaycan Dövlət Filarmoniyasında dünyasını yaxınlarda dəyişmiş gözəl bir şairin xatirə gecəsi keçirilirdi. Camal müəllimlə ön sıralarda yanaşı əyləşmişdik. Natiqlər xatirə gecəsini lətifə gecəsinə çevirmişdilər. Həmin şairin sağlığında onun yaradıcılığı ilə bağlı dəyərli məqalələr yazmış Camal müəllimi od götürmüşdü. Hamının, hətta çıxışçıların eşidə biləcəyi səslə özünün içdən gələn etirazını hirslə bildirir: "Bu nə hoqqadı çıxarırsınız? O kişinin ruhunu incitməyin, ayıbdı!" – deyirdi. Amma... heç nə olmayıbmış kimi ona söz verilmirdi. Mən də çox narahat olmuşdum. Camal müəllim görməsin deyə bir parça kağıza gizlincə bu sözləri yazıb aparıcıya ötürdüm: "Yuxarıdan aşağılar görünməsə də, aşağıdan yuxarılar daha aydın görünür. Aşagıda əyləşmiş Camal Mustafayevin ustad sözünə indi daha çox ehtiyac var!" Di gəl ki, aparıcı mənim kağızımı oxuyandan sonra... incidi, üzünü bir daha biz tərəfə çevirmədi. Quşu gözündən vuran həssas Camal müəllim: "Ay şair, dur dəniz sahilinə gedək, bura bizim yer deyil!" – deyərək, nümayişkaranə şəkildə zalı tərk etdi... Bizim arxamızca sənət qədri bilən xeyli adam da narazı halda tədbirdən yarımçıq çıxdı...

Fikir və sənət xəzinəsinin sultanı

Camal müəllim gözəl yol yoldaşıdır. Onunla səfərə çıxan adam qətiyyən darıxmır. Olanlardan-keçənlərdən, gördüklərindən-eşitdiklərindən, elmdən, sənətdən, ədəbiyyatdan, mədəniyyətdən elə maraqlı mövzularda söhbət açır ki, bir kərə qulaq asan bir də dinləmək istəyir.

Professor Camal Mustafayev fəlsəfəni ədəbiyyat qədər, ədəbiyyatı tarix qədər, tarixi mənəviyyat qədər sevdirməyi bacarır. Nizami fəlsəfəsi, Aşıq Ələsgər dünyagörüşü, Səməd Vurğun poeziyası Camal müəllimin ifasında necə də təravətli, necə də cazibədar səslənir!.. Üstəlik, o, çap zamanı yol verilmiş texniki qüsurları və üslub səhvlərini elə ustalıqla düzəldir ki, müəlliflərin ruhu da şad olur, fikir də öz həqiqi anlamını tapır, qaranlıq mətləblərə də aydınlıq düşür!..

Çağdaş poeziyamızda Osman Sarıvəlli, Nəbi Xəzri, Məmməd Araz, Hüseyn Arif, Tofiq Bayram, Nəriman Həsənzadə kimi tanınmış ədəbi simaların yaradıcılığını, milli ədəbiyyatımızdakı mövqelərini Camal müəllim əsl ədəbiyyatşünas alim kimi elə tutarlı nümunələrlə təhlil edib təsdiqləyir ki, istər-istəməz qayıdanbaş kitabxanaya gedib onların kitablarını yenidən təzə əsərlərtək oxumalı olursan!.. Onun görkəmli ədəbi simalarımızdan – klassik və müasir şairlərimizdən ardıcıl şeirlər söyləməsi adamın ruhunu yerindən oynadır!..

Bu baxımdan Camal Mustafayev geniş mütaliə dairəsinə və möhkəm yaddaşa malik olan əsl kitab təbliğatçısıdır. Bilənlərə bəllidir: bu görkəmli alim yaşının bu oğlan çağında da imkan tapan kimi ya M.F.Axundov adına Milli Kitabxanaya, ya Milli Elmlər Akademiyasının Elmi Kitabxanasına, ya da Xəzər Universitəsinin kitabxanasına üz tutur, az-az ələ düşən asudə vaxtını kitablar arasında "xərcləyir". Araşdırmalar aparır, müəyyən bir faktı dəqiqləşdirir, yeni elmi məqaləsi üçün tutarlı mənbələr arayır...

Çoxları bilir, professor Camal Mustafayev milli folklorumuzun təəssübkeşi, saz-söz xiridarı, ozan-aşıq sənətinin bilicisidir. Azman



sənətkarlarımızdan Əmrah Gülməmmədov, Hüseyn Saraclı, Mikayıl Azaflı, Alxan Qarayazılı, Kamandar Əfəndiyev, Ədalət Nəsibov, Aslan Kosalı uzun illər boyunca evinin ən əziz qonaqlarından olub. Şəxsən məni Aşıq Mikayıl, Aşıq Kamandar, Aşıq Aslan və Aşıq Ədalətlə doğmalaşdıran da elə Camal müəllimin özüdür.

Dəfələrlə şahidi olmuşam ki, istər görkəmli aşıqlar, istərsə də cavan sənətkarlar Camal müəllimin iştirak etdiyi məclisdə sözün yaxşı anlamında özlərini yığışdırır, barmaqlarının ən zərif xallarını, sinələrindəki ən gözəl söz incilərini onun şərəfinə ünvanlayırlar.

Heç yadımdan çıxmaz, respublika səviyyəli bir məclisin aparıcılığı mənə həvalə olunmuşdu. Tədbir başlayar-başlamaz böyük sənətkarımız Aşıq Ədalət qəfildən içəri girdi. Dərhal proqramı dəyişmək fikrinə düşdüm. Ustada yaxınlaşıb "xoş gəldiniz!" deyəndən sonra hörmət əlaməti olaraq birinci çıxış etməsi üçün razılığını almaq istədim.

Dünyagörmüş aşıq ani olaraq məclisə göz gəzdirəndən sonra: "A kişi, yavaş görüm, məni dilə-dişə salma! Görürsən Dədə Camalı, bəy kimi oturub burda! Qoy hələ bir hovur özümə gəlim, onun yanında elə-belə saz çalmaq olmaz!.." – deyə, cavab verdi.

Doğrudan da, məqamı çatanda Aşıq Ədalət sazı elə dilləndirdi ki, həm ustadların ruhuna, həm Camal müəllimin şərəfinə, həm məclisin ovqatına, həm də öz adına layiq oldu. İkimizin aramızda olan bu xırda atüstü söhbətdən, fəqət böyük mətləbdən sonra Aşıq Ədalətə hörmətim, Dədə Camal şəxsiyyətinə məhəbbətim birə min qat artdı!..

Bax budur, Dədə Camalın sənətkarlar arasındakı nüfuzu! Ustadlıq mərtəbəsində qərarlaşmış aşıqlarımızın Camal Mustafayev zirvəsi önündə baş əyməsi əsl Dədəlik məqamının təsdiqi deyilmi?!

Dədə Camal zər qədrini bilən zərgərdir! Qulağımla neçə dəfə eşitmişəm: aşıq konsertində biri təzanəni simlərə düz vurmayanda, o biri yerinə düşməyən xallar işlədəndə, digəri səsini nizamlaya bilməyəndə, bir başqası sözü təhrif edəndə başını bulayaraq,bircə cümlə deyir: "Ay-ay-ay, apar qaytar!.."

Amma elə ki sazla sözün, mizrabla simin, səslə pərdənin ecazkar vəhdəti yarandı, bax onda sevincdən gözü yaşarmış Dədə Camal yenə bircə kəlmə ilə ürək sözlərini ifadə edir: "Əla!.. Əla!.."

Professor Camal Mustafayev istedadına inandığı gənc yazarların mənəvi dayağı, təmənnasız qayğıkeşi, ustad yol göstərənidir. Təvazökarlıqdan uzaq görünsə də, mütləq vurğulamalıyam ki, bu böyük filosofun, nüfuzlu ədəbiyyatşünasın, nurlu ziyalının mənim poetik yaradıcılığımla bağlı yazdığı "Qəlb gözəlliyi" adlı məqaləsi həmişə mənəvi yardımçım olub, qolumdan tutub. Ustadın inamı məni ədəbiyyatın ənənəvi yolundan sapmağa qoymayıb, yeni axtarışlara, yeni uğurlara səsləyib. Bu da Dədə Camal etimadının bəhrəsi, Dədə Camal sözünün qüdrəti, Dədə Camal xeyirxahlığının təcəssümüdür...

Mənəvi borc

...Son zamanlar yazı-pozu ilə bağlı qəlb sirdaşım, qələm qardaşım Rəşid Faxralı ilə birgə Dədə Camalgilə tez-tez gedirik. Hər dəfə qapını üzümüzə üzügülər Nanə xanım açır. Dərhal da o biri otağa sarı səslənir: "Ay Camal, gör bir kim gəlib?"

Bizi elə yüksək səviyyədə qarşılayırlar ki, elə bil ən istəkli adamlarıyıq. Əslində hər ikimiz özümüzü onların mənəvi övladı sayır və bundan qürur duyuruq. Hər görüş bir xatirəyə, hər xatırlama bir mövzuya, hər mövzu bir söhbətə körpü salır. Hər söhbətin əzəlində də, sonunda da mərifət, insanlıq, təmənnasızlıq boy göstərir...

Sovet hökumətindən qalmış doqquzmərtəbəli binanın üçüncü qatındakı üçotaqlı mənzilə sığınmış Camal müəllimlə Nanə xanım dünyanın ən zəngin, ən xeyirxah, ən xoşbəxt ömür-gün yoldaşları təsirini oyadırlar. Saflıq, təmizlik, halallıq olan yerdə gəldi-gedər var-dövlətə nə ehtiyac?!

Çox qəribədir, bəlkə də qanunauyğundur: Camal müəllimgildən çıxanda dünyanın ən qayğısız adamları kimi ikimizin də üzümüz gülür, könlümüz açılır, ruhumuz dincəlir, mənən dincəlirik. Bu da bir Tanrı vergisidir!..

Mayası halallıqdan tutulmuş ocaq qarşısında mənəvi borcumuzdan çıxa bilirikmi? Allah bilir!..

Həyatı bənzərsiz bir xalı kimi,
İlmələr – ağ yazı, qara
yazıdır.
Sözünün mənası, sazının simi
Borçalı, Başkeçid,
Qarayazıdır!..

...Sancıb cəsarətlə elm
bayrağını
Fikir qitəsinə, söz qitəsinə!
Elə becərib ki, ömür bağını
Bənzəyir vətənin xəritəsinə!

"ÖZÜMÜ XOŞBƏXT SAYIRAM..."



Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, SSRİ xalq artisti, Azərbaycanın xalq artisti Arif Məlikov kifayət qədər uzun çəkən söhbətimizi bu sözlərlə tamamladı. Onunla görüşümüz isə təsadüfi deyildi: başa çatmaqda olan il özünəməxsus, parlaq musiqi əsərlərinin müəllifi üçün yubiley ilidir. Onun 75 yaşı tamam olmuşdur. əlamətdar tarixdir. Bununla əlaqədar ölkə Prezidenti İlham Əliyev sərəncam imzalamış, tanınmış həmvətənimizin yaradıcılığını haqlı olaraq, müasir Azərbaycan musiqi mədəniyyətinin parlaq səhifələrindən biri adlandırmışdır.

Belə sözləri oxumaq xoşdur! Zənnimcə, bu, təkcə yubilyara aid deyildir. Əsla şübhə etmirəm ki, Arif Məlikovun musiqisini — Vətənimizin şöhrətini bütün dünyaya yayan musiqini xoşlayan hər kəs bu sözlərə görə qürur duyur.

Anadan olmasının 75 illiyi münasibətilə

Bəstəkar çox tez məşhurlaşmışdır. 1961-ci ildə Leninqrad Akademik Opera və Balet Teatrının səhnəsində "Məhəbbət əfsanəsi" baletinin ilk tamaşası göstəriləndə Arifin 28 yaşı hələ tamam olmamışdı. Azərbaycan Dövlət Konservatoriyasının gənc məzununun görkəmli türk şairi Nazim Hikmətin librettosuna bəstələdiyi bu əsər sayəsində şair ilə bəstəkar arasında yaranmış dostluq uzun illər davam etmişdir. O vaxt ilk tamaşada dirijor pultu arxasında bənzərsiz maestro Niyazi dayanmışdı. Bu balet bütövlükdə sovet xoreoqrafiyasında böyük hadisə oldu. Dmitri Şostakoviç onu ayrıca bir mərhələ xarakteri daşıyan tamaşa hesab edirdi. O, "istedadlı bəstəkar" adlandırdığı Arif Məlikovun musiqisini isə çoxsaylı tapıntılarla zəngin olan əsl peşəkar musiqi kimi səciyyələndirmiş, həmin tapıntıların musiqiyə xüsusi gözəllik, dəqiqlik və ifadəlilik verdiyini vurğulamışdı.

Dahi Üzeyir Hacıbəylinin musiqisi əsasında yetişmiş, böyük Qara Qarayevin məktəbini keçmiş, fitri istedada malik bəstəkarın əsəri yəqin ki, belə də olmalı idi! Arif Məlikov hələ tələbəlik illərində balet musiqisi yaratmaq sahəsində öz imkanlarını sınamış və bu sınaqdan uğurla çıxmışdır. Bunu bilən Qara Qarayev ona "Məhəbbət əfsanəsi" baletinin librettosu üzərində işləməyi tövsiyə etmiş və bu seçimində yanılmamışdı!

Bir qədər irəli gedərək deməliyəm ki, o vaxtdan keçən yarım əsrə yaxın müddətdə bu balet dünyanın 60-dan çox teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Bu, rekord göstəricidir! Bakılı tamaşaçılar isə həmin əsərə Leninqrad premyerasından bir il sonra, müəllifin öz quruluşunda baxmış, 1965-ci ildə isə Məlikovun baleti Moskvada Böyük Teatrda tamaşaya qoyulmuşdur. O zaman əsas partiyaların birini Mayya Plisetskaya ifa edirdi.

"Məhəbbət əfsanəsi" Yer kürəsinin ən müxtəlif guşələrində milyonlarla insanın qəlbini fəth edərək, musiqi və teatr sənətinin həqiqətən əfsanəvi əsərinə çevrilmişdir. O vaxt Leninqradın, Moskva və Bakının sənətsevərləri ilə yanaşı Paris, Daşkənd, İstanbul, Nyu-York, Avropanın, Amerikanın və Rusiyanın bir sıra iri şəhərlərində də tamaşaçılar bu əsəri, onun müəllifini və ifaçılarını alqışlayırdı. Ən maraqlısı budur ki, həmin balet bu teatrların çoxunun reper-

tuarında bu gün də qalır.

Mən Arif Məlikovla və onun sədaqətli ömür-gün yoldaşı, ilham pərisi, cazibədar Esma xanımla məhz "Məhəbbət əfsanəsi"nin ilk tamaşaları dövründə tanış olmuşam. O vaxt biz bir binada yaşayır, tez-tez görüşürdük, Zuğulbada birlikdə istirahət edirdik. Mən Arif haqqında çox şeyi bilirdim. Görünür, jurnalist peşəsi öz təsirini göstərirdi. Məsələn, bilirdim ki, o, Bakıda Mustafa Sübhi küçəsində, Təzəpir məscidinin yaxınlığında anadan olmuşdur. Bütün yaşıdları kimi, o da futbol oynayır, idmanı çox xoşlayır, bu mövzuda söhbət düşəndə öz fikrini sübut etmək üçün, az qala, səsi tutulana qədər mübahisə edirdi. Əslində, Arif istənilən mövzu barədə mübahisə etməyi xoşlayırdı. Bir dəfə mənim o vaxt işlədiyim qəzetin redaktoru bizə qonaq gəlmişdi. Bizim evdə Arifla onun arasında gedən diskussiya hələ də yadımdadır. Çılğın temperamentli bu adamlar qarşı tərəfin fikrini axıra qədər dinləmədən hərə öz dediyinin üstündə təkid edirdi. Bircə bu yadımdadır ki, söhbət müasir incəsənətə münasibət barədə idi...

Bəli, gələcəyin dünya şöhrətli bəstəkarının incəsənətin vəzifəsi barədə həmişə öz fikri olmuşdur. Arifin dediyinə görə, bu xasiyyət hələ uşaq yaşlarından özünü göstərirdi. "Musiqiyə məhəbbət mənə anamdan keçmişdir. İxtisasca müəllimə olan anam yaxşı kamança çalırdı. Təəssüf ki, o, hə-



yatdan çox tez getdi. Atam hərbçi idi. Bizə - dörd qardaşa intizamlı olmağı, borc və məsuliyyət hissini dərk etməyi təlqin edir, bunu kişiyə xas olan əsas cəhətlərdən biri sayırdı.

Arifin 14 yaşı tamam olanda ona tar almışdılar. Az sonra o, Asəf Zeynallı adına musiqi məktəbinə daxil olur və 17 yaşında həmin məktəbi bitirib təyinat üzrə Şuşa şəhər musiqi məktəbində işləməyə başlayır. Eyni zamanda, konservatoriyanın bəstəkarlıq fakültəsinə daxil olmağa hazırlaşır, qəbul imtahanları üçün məxsusi musiqi bəstələyirdi.

1953-cü ildə o, konservatoriyanın tələbəsi idi. Az sonra onu Qara Qarayevin sinfinə keçirirlər. Burada Qara müəllim və onun şagirdi – bəstəkar kimi ilk addımlarını atan Arif arasında çox sıx münasibətlər yaranır və uzun illər davam etmiş bu əlaqələr çox gözəl yaradıcılıq bəhrələri verdi.

Təbii ki, mən bu yazıda Arif Məlikovun bütün əsərlərini sadalamaq və xüsusən də onlara sənətşünaslıq baxımından qiymət vermək fikrində deyiləm. Çünki mən musiqi sahəsində mütəxəssis deyiləm və onun əsərlərini qiymətləndirməyə haqqım yoxdur. Bu işi bəstəkarın bioqrafı Nelli Ələkbərova çox maraqlı və peşəkar səviyyədə görmüşdür. Onun yazıları bir jurnalist kimi mənə Məlikovun bəstəkarlıq dəstxəttini daha yaxşı anlamaqda, bəzən isə onun bu və ya digər əsərinə tamamilə yeni tərzdə yanaşmaqda çox kömək etmişdir.

Çox güman ki, Məlikov yaradıcılığında geniş dinləyici kütləsini ən çox cəlb edən bəstəkarın teatr üçün musiqi yaratmağa olan həvəsidir. Axı "Məhəbbət əfsanəsi"ndən sonra Leninqradda onun "Bu torpaqda iki nəfər" baletinin tamaşası da uğurlu olmuş, sonralar, 1982-ci ildə Daşkənd Dövlət Teatrının səhnəsində məşhur özbək yazıçısı Şərəf Rəşidovun poeması əsasında Arif Məlikovun "İki ürək dastanı" adlı baletinin premyerası olmuşdur. Bu baletlərin hər ikisi əbədi məhəbbət himnidir. SSRİ xalq artisti maestro Niyazi "İki ürək dastanı" əsəri haqqında yazmışdı: "Ülvi saflıq, insana müraciət, həqiqi pafos –

mən bu tamaşada bunları gördüm".

Amma bütün bunlara baxmayaraq, mütəxəssislər deyirlər ki, Arif Məlikovun yaradıcılığında simfoniya janrı özünü daha qabarıq göstərir. O, səkkiz simfoniyanın və bir sıra başqa simfonik əsərlərin – yeddi simfonik poemanın, vokal-simfonik poemaların, kantatanın, bir neçə süitanın müəllifidir. Yeni formalar, yeni həllər axtarışının bəhrəsi olan bu əsərləri səciyyələndirən ümumi cəhət onların hamısının qədim muğam sənətindən qaynaqlanmasıdır. Bəstəkarın bu yaxınlarda çapdan çıxmış kitabı da məhz muğam sənətinə həsr edilmişdir.

Məlikovun ilk simfoniyası onun konservatoriyada təhsilinin yekunu oldu. Musiqişünaslar bu əsərin özünəməxsus səmimiliyini, orijinallığını vurğulayırdılar. Hələ lap gənc olan bəstəkarın bu əsəri böyük maraqla qarşılandı, Çingiz Hacıbəyov, Niyazi və Kamal Abdullayev kimi tanınmış dirijorlar bu əsəri ifa etdilər. Arif Məlikovun ikinci simfoniyası Dmitri Şostakoviçə həsr edilmişdir. Böyük bəstəkar bu əsərin premyerasından sonra demişdi: "Bu gözəl musiqi əsəri münasibətilə müəllifi təbrik edirəm. Əsəri mənə ithaf etdiyinə görə sevinir və fəxr edirəm..."

Bu böyük musiqiçi hələ 1956-cı ildə Azərbaycan bəstəkarlarının I qurultayında iştirak etmiş, o vaxt konservatoriyanın tələbəsi olan Məlikovun skripka və fortepiano üçün süitasının melodikliyini, məxsusi harmoniya dilini vurğulamışdı.

Arif Məlikov Şostakoviçə həmişə çox səmimi münasibət bəsləmişdir və onu haqqında böyük ehtiram və minnətdarlıq hissi ilə söhbət açdığı müəllimi Qara Qarayevin müəllimi adlandırırdı. Axı, Şərqdə müəllimi ikinci ata hesab edirlər...

Dünyada tanınmış dirijorların çoxu həmyerlimizin əsərlərini böyük sevinc hissi ilə geniş dinləyici auditoriyasına təqdim edir di. Vladimir Fedoseyev, Q.Aykal, Niyazi, Rauf Abdullayev, Zubin Meta və başqaları Arif Məlikovun simfonik repertuarın



ən yaxşı nümunələri sırasına aid edilən əsərlərinə dirijorluq edirdilər. Bunun səbəbini isə SSRİ xalq artisti Gennadi Rojdestvenski çox dəqiq izah etmişdir: "Ona görə ki, bu əsərlərdə hər şey var: fikir dərinliyi, gözəl, həqiqi, açıq, təbii emosiyalar və orkestrə ustalıqla bələd olmaq. Onun əsərlərinə dirijorluq etmək insana əsl zövq verir".

Arif Məlikovun yaradıcılığının çoxcəhətliliyini xatırlatmasaq, bəstəkarın portreti yarımçıq olar. Məsələn, o, bütün ömrü boyu teatr və kino üçün musiqi yazmışdır və indi də yazır. 50-dən çox mahnının müəllifidir. Azərbaycan şairlərinin sözlərinə yazılmış bu mahnılar Rəşid Behbudov, Zeynəb Xanlarova və başqa sevimli müğənnilərin ifasında səslənmişdir. SSRİ xalq artisti Fidan Qasımovanın bənzərsiz ifasında Məlikovun gözəl romansları da hamımızın yaddaşına həkk olunmuşdur. Operetta həvəskarları onun "Dalğalar" əsərini məmnuniyyətlə xatırlayırlar.

Arif Məlikov simfonik orkestr üçün əsərlərinin çoxuna özü dirijorluq etməyi xoşlayır. Özünün etiraf etdiyi kimi, dirijorluq sənəti onu həmişə cəlb edirdi, o, maestro Niyazinin bu işin öhdəsindən necə məharətlə gəlməsini seyr etməkdən doymurdu. Bir dəfə, 1962-ci ildə o, dirijor pultu arxasına keçməyə özündə cəsarət tapdı. O vaxtdan bəri Moskvanın, Bakının, Praqanın, Ankaranın, İstanbulun bir sıra teatr və konsert salonlarında vaxtaşırı dirijorluq etmişdir.



İstedadlı insan hər sahədə istedadlı olur. Bu, bəlkə də bayağı səslənir, amma belədir. Bu sözlər Arif Məlikova da aiddir. Daxilində çağlayan yaradıcılıq ruhu təkcə musiqi sahəsində üzə çıxmır. Məsələn, çoxları bilmir ki, zahirən bir qədər qaraqabaq təsir bağışlayan bu insanın daxilində incə bir lirizm, ətrafda olanlara romantik baxış, gözəlliyi görmək, daha doğrusu, onu hiss etmək, duymaq bacarığı vardır. Bunu Arif Məlikovun rəsm əsərləri sərgisinə tamaşa edənlər bilir.

Təsəvvür edin ki, rəngkarlıq sənəti bəstəkarın həyatında musiqi qədər çox böyük yer tutur. Sən demə, o, musiqi bəstələməkdən daha əvvəl şəkil çəkməyə başlayıbmış. İndi isə incəsənətin bir növü digərini tamamlayır. Bəlkə də buna görədir ki, Məlikovun rəsm əsərləri onun təbiəti qavraması ilə sıx bağlıdır - poetik və musiqilidir, musiqi əsərləri isə belə rəngarəng və obrazlıdır.

Keçən əsrin 80-ci illərinin axırlarında, o vaxta qədər adət etdiyimiz cəmiyyətin dağılmağa başladığı bir vaxtda Arif Məlikov onu tanıyanların çoxu üçün özünü yeni bir cəhətdən göstərdi. O, həmin dövrdə baş verən hadisələri dərindən anladığını və onlara heç də laqeyd olmadığını göstərdi, halbuki ilk baxışda bu hadisələrin bütövlükdə incəsənətə və o cümlədən musiqiyə dəxli yox idi.

Xalqımızın həyatında ən çətin günlərdə - 1980-ci illərin axırları – 90-cı illərin əvvəlində o, həqiqi vətənpərvər olmasını əməli işlə sübut etdi. SSRİ xalq deputatı olan Arif Məlikov ölkənin o vaxtkı rəhbərliyinin riyakar siyasətini cəsarətlə və açıq ifşa edirdi. A. Məlikovun qətiyyətli vətəndaş mövqeyi onun "Mən ittiham edirəm!" kitabında dəqiq ifadə olunmuşdur.

Arif Məlikov deyir: "Mən öz xalqımın oğluyam və azərbaycanlı olmağımla fəxr edirəm". Təsadüfi deyil ki, bəstəkarın yaradıcılığı barədə söz düşəndə həmişə xüsusi vurğulayırlar ki, onun musiqisində vətəninin torpağının, suyunun, səmasının izi duyulur.

Bəstəkar, Milli Elmlər Akademiyasının müxbir üzvü, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kafedra müdiri Arif Məlikov öz həyatının çox mühüm, bəlkə də ən əhəmiyyətli hissəsini Ulu Öndər Heydər Əliyevin adı ilə bağlayır. Musiqini çox sevən və dərindən duyan ümummilli lider bəstəkarın əsərlərini dəfələrlə dinləmiş, dəfələrlə onunla görüşmüş, xeyli söhbət etmişdi, vaxtaşırı ona zəng edib işlərinin vəziyyəti ilə maraqlanırdı. 1995-ci ildə İncəsənət Muzeyində bəstəkarın müəllif konsertində Ulu Öndər onun yaradıcılığı haqqında çox xoş sözlər demişdi. Bütün bunlar Arif Məlikovu daha da ruhlandırır, doğma xalqının naminə yorulmadan işləməyə sövq edirdi. Arif Məlikovun təltifləri, fəxri adları, mükafatları, ordenləri, medalları, o cümlədən xarici dövlətlərin mükafatları çoxdur. Lakin o, müstəqil vətəninin ali ordenini – şəxsən Heydər Əliyevin təqdim etdiyi "İstiqlal" ordenini özü üçün ən böyük mükafat hesab edir.


Arif Məlikov özünün sonuncu, Səkkizinci simfoniyasını Azərbaycan xalqının bu böyük oğluna həsr etmişdir. "Əbədiyyət" adlanan bu simfoniya onun həsr edildiyi insanın adı kimi daim yaşayacaqdır...

Sənətkarın başqa gözəl əsərləri də əsrlər boyu yaşayacaqdır. Ona görə ki, İncəsənət bütün dövrlərin sınağından uğurla çıxır. Həqiqi sənətin mənəvi missiyası var, o, bizə sevinc bəxş edir, bizi daha müdrik, daha həssas, daha humanist edir. Bəlkə də buna görədir ki, bu yüksək missiyanın daşıyıcılarından biri olan bizim müasirimiz, bəstəkar Arif Məlikov özünü xoşbəxt hesab edir.

Elmira Əliyeva,
AzərTAc-ın müxbiri

TƏDQİQAT

"KİTABİ-DƏDƏ QORQUD"DA OĞUZ QADIN TİPİ: SELCAN XATUN



Bəhlul ABDULLA

KDQ-də adı ilə tanınan xanımlardan biri də Selcandır. Sarı don geydiyi üçün "sarıdonlu" ayaması ilə tanınan bu qız nə İç Oğuz, nə də Daş Oğuz bəylərindən birinin qızıdır. O, Trabuzan təkürünün qızıdır. Deməli, kafir, yəni müsəlmanlığı qəbul etməmiş təkürün qızıdır. Amma bu, o demək deyil ki, onlar ümumi Oğuz tirəsindən, Oğuz köküdən qıraqdadırlar. Elə "Qanlı Qoca oğlu Qanturalı boyu"nda da bu məsələyə işarələr az deyil. Misal üçün, oğlu Qanturalı üçün qız arayan Qanlu Qoca İç Oğuzda, Daş Oğuzda istəyinə nail ola bilmir. O, bu qızı Trabuzanda tapır.

Deməli, Oğuzların, hətta kafir adlandırılanların da bir-birlərinin yurdlarına gedib-gəlişlərində, bir-birlərinə qız alıb-vermələrində və bununla da qohum olmalarında heç bir əngəllik yoxdur. Başqa bir misal. Biz bilirik ki, İç Oğuz, Daş Oğuz bəylərinin, eləcə də xanımlarının daha çox mindikləri yelisi qara Qazılıq atlarıdır. Buna aid KDQ-in boylarından istənilən qədər örnək göstərmək olar. Elə kafir deyilənlər də bu adda atlara minirlər. İç Oğuz, Daş Oğuz bəylərinin ucaldıb yaşadıqları ağban evlərdir. Trabuzanlular da belə evlər tikir, belə evlərdə yaşayırlar. İç Oğuz, Daş Oğuz bəylərinin ov ovladıqları məkan Arqubeli, Ala dağdır. Elə Trabuzan kafirləri də buralara ova çıxırlar. İnanmırsınızsa, onda Trabuzan kafirinin qızı Selcanın bir soylamasını oxuyun:

Qalqubanı yerimdən durar idim,
Yelisi qara Qazılıq atuma binərdim.
Babamın ağ-ban evindən çıqardım.
Arqu beli, Ala dağı avlar idim
Ala-qen sığın – keyik qovar idim...

Düşünürük ki, bu cür açıq-aydınlıqdan sonra müsəlmanlığı qəbul etməmiş və etmiş Oğuzları bir kökdən, bir soydan saymamaq, sadəcə, günahdır.


Dedik ki, Qanlı Qoca oğlu Qanturalıya layiq qızı Trabuzanda tapır. Nə var ki, ağsaqqal-qarasaqqal yığışıb elçiliyə getsin, kəsim – kəsmat eləsin və qızı alıb gətirsin. Yox, məsələ belə deyil. Bu qızın, yəni Selcan xatunun ərə gedəcəyi kimsənin qarşısında qoyduğu şərtlər, sözsüz ki, çox çətindir. Bəlli olur ki, Selcan xatunun əjdaha güclü üç canvəri – qağan aslanı, qara buğası, qara buğrası vardır. Onu halallığa almaq istəyən bu üç canvərlə vuruşmalıdır. Məğlub olanın başı kəsiləcək, qalib gələn isə Selcanı alacaq.

Selcanın eşqinə düşən elə kafir bəy oğlanları da az deyil. Bunlardan otuz ikisi hələ heç qara buğanı, qara buğranı görməmiş qağan aslanla əlləş-vuruşda basılmış, başları kəsilib bürcdən asılmışdır.

Düşünürsən ki, ayə, bu qız nə belə matah çıxıb, bu qədər millət ondan sarı öz başlarını beləcə verirlər fələyin qəminə? Amma boyda onun xəttü-xalı, gül camalı ilə tanış olduqda, deyirsən, bəli, bu qız yolunda ölməyə dəyər. Öyrənirik ki, "əzim görklu məhbub" olan sultan qızı Selcan "gözəllər sərvəri"dir. Hələ görün Qanturalı bu afəti necə öyür:

Yalab-yalab yalabıyan **(işım-işım işıldayan – B.A.)** *incə donlum!*
Yer basmayıb yüriyən,
Qar üzərinə qan dammış kibi qızıl yanaqlım!
Qoşa badam [sığmayan] dar ağızlum!
Qələmçilər çaldığı qara qaşlım!
Qurması qırq tutam qara saçlım!

Indi özünüz deyin, belə qızdan baş əsirgəmək olarmı?! Heç Qanturalı da əsirgəmir. Və Qanturalının bu qız yolunda ölümdən belə qorxmamasının başqa bir səbəbi də var. Bu səbəb də ibarət olsun ondan ki, atası Qanturalıya evlənmək təklif edəndə, o da eynən Bamsı Beyrək kimi cavab verərək necə qız istəməsini belə bildirir: "Baba, mən yerimdən durmadan ol durmuş ola! Mən qaraquc atıma binmədən ol binmiş ola! Mən qanlı kafir elinə varmadan ol varmış, mana baş gətirmiş ola!"



Mikayıl Abdullayev
"Qanlı Qoca oğlu Qanturalı"

Bəli, Qanturalının istədiyi belə qız elə Selcan xatundur. Boyda bildirilir ki, bu qız "sağına-soluna iki qoşa yay çəkərdi. Atdığı ox yerə düşməzdi!"

Elə zənn olunmasın ki, sarıdonlu Selcanın keyfiyyət cizgilərini qabartmaqla Qanturalını unuduruq. Əksinə, dastançı bu igidin üstün cəhətlərini də üzə çəkməkdə bizə yararlı istiqamət verir. Təhkiyədə deyilir: "Qanturalı camal və kamal iyəsi yigit idi. Oğuzda dört yigit niqabla (*üzü örtüklü* – **B.A.**) gəzərdi. Biri Qanturalı, biri Qaraçəkür və oğlu Qırqqınuq və Boz ayğırlı Beyrək. Qanturalı niqabın sərpdi. Qız (*Selcan* – **B.A.**) köşkdən baqardı. Daraqlığı boşaldı, kedisi mavladı ("mavla"dı pişiyin miyoldaması deməkdir. Buradakı "mavla" pişiyin nazik səslə miyoldamasına işarədir. "Kedi" sözü "Kitabi-Dədə Qorqud Ensiklopediyası"nın I cildində T.Hacıyev və İ.Məmmədovun verdikləri lüğətdə "pişik" olaraq izah olunmuşdur. Halbuki, KDQ-də pişiyə "kedi" yox, "çətüg" deyilir. "Kedi" isə Mahmud Kaşqarlının lüğətinin II cildinin 247-ci səhifəsində "arxa", "dal" olaraq yazılmışdır. Selcana aid "kedisi mavladı"da da elə M.Kaşqarlının dediyi nəzərdə tutulmuşdur – B.A.). Avsal olmuş dana kibi ağzının suyu axdı. Yanındakı qızlara aydır: "Haq Taala atamın könlünə rəhmət eyləsə, kəbin kəsib məni ol yigidə versə. Bunun kibi yigit heyf ola ki, canvərlər əlində həlak ola!"

Bəli, Qanturalı belə ağıl-kamal, camal sahibi olan igiddir. Həm də cürətli, hünərli igiddir. Selcan eşqinə düşmüş otuz iki kafir bəy oğlanlarından deyil ki, qara buğaya, qara buğraya çatmamış qağan aslan basqısında məhv olub gedə. Buna görə də, Selcanın ondan sarı narahatlıq keçirməsi əbəsdir.

Qanturalı üç canvərlə vuruşda qalib gəlməklə şərti yerinə yetirir. Selcanı alıb Trabuzandan yeddi gün, yeddi gecə yolu olan Oğuza dönürlər. Amma Selcanın atası peşman olur. Altı yüz seçmə kafiri silahlandırıb göndərir ki, qızı Qanturalının əlindən alıb geri qaytarsınlar.

Arxada Selcan xatunun sağına-soluna qoşa yay çəkməsini, atdığı oxun yerə düşməməsini demişdik. Və Selcanın doğrudan-doğruya belə hünər sahibi olmasını onu qaytarmağa gələn atasının adamları ilə qarşılaşmada daha açıq olaraq görürük. Belə ki, onlar müəyyən məsafə yol getdikdən sonra ququ quşları, durnalar, turaclar, kəkliklər uçuşan, soyuq-soyuq sular axan bir çəmənlikdə düşürlər. Qanturalı yuxuya gedir. Selcan isə düşünür ki, onun möhübləri – sevənləri, aşiq olanları çox idi. Qəfildən gəlib Qanturalını yatdığı yerdə öldürə bilərlər. Odur ki, Qanturalının atını yəhərləyib hazır saxlayır. Özü də döyüş libasını geyinir, süngüsünü əlinə alaraq hündür bir yerə qalxıb gözləyir. Elə bu vaxt Trabuzan kafirləri yetişirlər. Selcan bunları görüb əvvəlcə Qanturalını oyatmaq qərarına gəlir. O, şirin yuxuya getmiş Qanturalının başı üstə durub deyir:

Ğafil olma, qara başın qaldır, yigit!
Ala qıyma görklü gözün açğil, yigit!
Qarularından ağ əllərin bağlanmadan,
Ağ alnun qara yerə dəpilmədən,
Ğafilə görklü başın kəsilmədən
Alca qanın yer yüzinə dökülmədən,

Yağı yetdi, düşmən irdi,
Nə yatırsan, qalqqil!
Qab qayalar oynamadan, yer obruldı.
Qarı bəglər ölmədin el boşaldı.
Qurcuşuban – uğraşuban dağdan endi.
Yasanuban üzərinə yağı yetdi.
Yatacaq yermi buldun, yurtmu buldun,
Noldu sana?


Biz elə KDQ-in özündən bilirik ki, Oğuz bəylərinin yatması yeddi gün çəkirmiş. Bu səbəbdən də onlar yuxuya "kiçicik ölüm" deyirmişlər. Qanturalı da Selcanın səsinə yuxudan yarımçıq oyanır. Məsələnin nə yerdə olduğunu öyrənincə süngüsünü əlinə alaraq, sıçrayıb atına minir və kafirlərə hücum edir.

Elə bilirsiniz Selcan dayanıb Qanturalının kafirləri necə doğrayıb tökdüyünə tamaşa eləyir? Əksinə, o da kafirə hücum edir. Qanturalı "nə üçün belə edirsən?" – deyə soruşanda, görün, bu qız necə cavab verir və necə hərəkət edir: "Bəğ yigit, baş əsən olsa, börk bulınmazmı olur? Bu gələn kafir çoq kafirdir. Savaşalım, dögüşəlim, ölənimiz ölsün, diri qalanımız odaya gəlsin!" – dedi. Burada Selcan xatun "at saldı, qırımın basdı. Qaçanın qovmadı. "Aman" deyəni öldürmədi. Eylə sandı ki, yağı basıldı. Qılıcının balçağı qan odaya gəldi".

Amma qız Qanturalını odada görmür. Elə bu vaxt Qanturalının ata-anası buraya gəlir. Onlar Selcandan Qanturalını soruşurlar. O, gələnlərin qayınatası, qayınanası olduqlarını başa düşür və deyir ki, hansı yerdən toz qalxırsa, hansı yerdə qarğa-quzğun oynaşırsa, Qanturalı oradadır. Bunu deyib, Selcan yenə də atını səyirdir. Gəlib görür ki, Qanturalının atı oxlanmış, gözü yaralanmış, sir-sifəti qan içində kafirlərlə döyüşür. Boyda deyilir: "Selcan xatun bunu böylə gördi; içinə od düşdü. Bir bölük qaza şahin girmiş kibi kafirə at saldı. Bir ucından qırub kafiri, ol bir ucına çıqdı".

Döyüşdə halsızlaşmış Qanturalı döyüş geyimində olan Selcanı tanımır. Kimliyini, icazəsi olmadan onun yağısı ilə hansı səbəbdən vuruşmasını öyrənmək istəyir. Çünki Oğuzlarda qəbul olunmuş etiketə görə, onların döyüş-vuruşuna icazəsiz, razılıq olmadan bir kəsin qarışması bağışlanmaz eyib sayılırmış. Bu üzdən də döyüş qurtarıb kafir məğlub olandan sonra Qanturalı ona yardım edənin Selcan olduğunu bilir və qızı öldürmək istəyir. Səbəbini də belə izah edir:

Qalqubanı Selcan xatun durduğunda,
Yelisi qara Qazılıq atun bindüginda,
Babamın ağ-ban eşiginə düşdüginda,
Oğuzun ala gözli qızı-gəlini bildıqda,
Hər kişi sözin söylədikdə



L.V.Şarov
"Selcan xatunun Qanturalıya ox atması"

Qanturalı zəbun oldı.
At ardına aldım çıqdım deyəsən
Gözüm döndi, könlüm getdi
Öldürərəm səni.

Selcan çalışır ki, Qanturalını bu fikrindən daşındırsın. Ər olan yerdə övrətin öyünməsini yersiz sayır. Amma onun dedikləri Qanturalıya təsir etmir. "Öldürəcəyəm!" deyib durur. Qanturalının ipə-sapa yatmadığını görən Selcan qəzəblənib: "-Mərə qavat oğul, qavat! Mən aşağa qulpa yapışuram, sən yuqarı qulpa yapışursan. Mərə, qavat oğlı, oxunlamı, qılıcınlamı? Gəl bərü, söyləşəlim!" - deyir.

Qarşılaşmada Selcanın atdığı bircə oxdan Qanturalını vahümə bürüyür və onunla barışmaq zorunda qalır.

"Студенческий меридиан"

"Xəzər Xəbər"də

ВЕРСИЯ

УЖЕЛЬ ТА САМАЯ?..

Взгляд философа на классическую любовную драму

Об Онегине слышали все. Из школьной программы известно, что он – «лишний человек» своего времени. В противовес ему давалась – с придыханием, понятно, – характеристика Татьяны Лариной: в ней воплощены лучшие черты русских женщин. В общем – идеал.



Раньше для сочинений информация готовилась с помощью шпаргалок, теперь споспешествует всемогущий Интернет. Но суть та же: на отрицательном полюсе – Онегин, на противоположном – лучезарная Татьяна.

Предлагаю посмотреть на героев романа другими глазами. Но вместе с авторской мыслью. Именно вместе, а не вместо автора, как это сложилось очень давно – тогда, когда роман был определен в качестве «энциклопедии русской жизни».

Что пишет Пушкин о своем герое? К выходу в свет «он по-французски совершенно мог изъясняться и писал», «знал довольно по латыни», «читал Адама Смита, и был глубокий эконом», а еще был «философом в осьмнадцать лет». Получив дядино наследство, не стал его транжирить: «Сперва задумал наш Евгений порядок новый учредить. В своей глуши мудрец пустынный, ярем он барщины стариной оброком легким заменил».

Как поворачивался язык называть такого всестороннего специалиста «лишним человеком»? Школьные учебники ставили в вину Онегину, что он не боролся против самодержавия «за счастье народное». Так может это и хорошо, что не боролся, не лез не в свое дело.

Можно, безусловно, найти в романе отрицательные характеристики Онегина: «дожив без цели, без трудов до двадцати шести годов, томясь в бездействии досуга, без службы, без жены, без дел, ничем заняться не умел». Насчет жил «без трудов» не все сходится. Знание языков, экономики, философии с небес не сваливается. Что касается «не умел», то думается, что больше все же не хотел, не желал втягиваться в суету сует. Во все времена таких людей было достаточно. Один из цезарей предпочел императорской короне выращивание капусты, и история его не заклеймила.

Пушкин явно симпатизирует Онегину. Не пойму, почему этого не замечают. «Сноснее многих был Евгений», «мне нравились его черты, мечтам невольная преданность, неподражательная стран-

ность и резкий, охлажденный ум». Поэт сравнивает своего героя с собой: «Увы, на разные забавы я много жизни погубил!», «Я был озлоблен, он угрюм; страстей игру мы знали оба: томила жизнь обоих нас; в обоих сердца жар угас; обоих ожидала злоба слепой Фортуны и людей на самом утре наших дней».

Ларина для поэта – «моя Татьяна». Многим кажется, что Пушкин ее любит больше, чем Онегина. Но здесь явно неуместны оценки «больше - меньше». Автор просто восхищается героиней, легко прощает ей какие-то слабости. Я бы сказал даже – недовоспитанность. Во всяком случае, по исконно российским меркам.

Вчитаемся: «Дика, печальна, молчалива, как лань лесная боязлива, она в семье своей родной казалась девочкой чужой. Она ласкаться не умела к отцу, ни к матери своей; дитя сама, в толпе детей играть и прыгать не хотела и часто целый день одна сидела молча у окна». «Но куклы даже в эти годы Татьяна в руки не брала; про вести города, про моды беседы с нею не вела. И были детские проказы ей чужды: страшные рассказы зимою в темноте ночей пленяли больше сердце ей... Она в горелки не играла, ей скучен был и звонкий смех, и шум их ветреных утех».

Как вам такой ребятеночек? Вчитайтесь еще раз. Представили, что вырастет из монстрика, который на ночь обожает слушать/смотреть ужастики? Сегодня психологи подростка с подобным поведением берут под постоянное наблюдение.

В учебниках психологии есть характеристика человека, получившего сходное «воспитание». «Аутичный ребенок... Лишенный детства. Ни во что не умел играть. Как научиться без игр, без проб, без возможных ошибок? Повышенная серьезность скрывала растерянность. Замкнутый на себе и осторожный от всех, он общался не с людьми, а с наскоро выдуманными призраками. Он, человек без быта, уничтожил фон ради изменения положения собственной фигуры». Бьюсь об заклад, читатель не угадал, кто этот двойник Татьяны. Такую характеристику дал директор Института групповой и семейной психологии и психотерапии Леонид Кроль юному Володе Ульянову.

Не будем вспоминать, что натворил этот аутичный ребенок. Уйдем от дискуссий о роли Ленина в судьбе человечества, от копания в его морально-нравственных установках. Вернемся к нашей героине.

Насколько Татьяна – идеал русской женщины? Сам Пушкин вообще-то не настаивает на «русскости» Татьяны. Она «русская душою, сама не зная, почему». Татьяна «по-русски плохо знала, журналов наших не читала, и выражалася с трудом на языке своем родном, итак, писала по-французски...» Судя по всему, роман Пушкина Татьяна не смогла бы прочесть. Посочувствуем.

Зададимся вопросом: что заменяет Татьяне естественное детское общение? «Ей рано нравились романы; они ей заменяли всё; она влюблялася в обманы и Ричардсона и Руссо». Обратим внимание, что «она любила Ричардсона не потому, чтобы прочла, не потому, чтоб Грандисона она Ловласу предпочла», а потому, что «ее московская кузина твердила часто ей об них».

Как это бывает у излишне увлеченных романами, незрелых умственно девиц, «давно ее воображенье, сгорая негой и тоской, алкало пищи роковой; давно сердечное томленье теснило ей младую грудь; душа ждала... кого-нибудь». И тут под-



вернулся Евгений Онегин. Вне сомнения, появись в долгие деревенские вечера другой, произошло бы то же самое: «И дождалась... Открылись очи; она сказала: это он!»

Безусловно, можно и нужно простить девушку, которая «от небес одарена воображением мятежным». Но почему литературные критики и авторы школьных учебников изображают Онегина роковым искусителем, эдаким фатальным тираном в любви? Знаков внимания сестрам он не оказал, даже не разобрался, кто из них кто. Несомненно, письмо Татьяны стало для него не совсем приятной неожиданностью.

Над этим письмом проплакали десятки тысяч дореволюционных курсисток, советских школь-

ниц и прыщавых юнцов. Сам Пушкин восхищается письмом: «Его я свято берегу, читаю с тайною тоскою и начитаться не могу. Кто ей внушал и эту нежность, и слов любезную небрежность?». Кто – кто? Да все те же романы из чужих стран, где другая жизнь, иные нравы и страсти.

После весьма краткой, случайной встречи с Онегиным «все для мечтательницы нежной в единый образ облеклись. В одном Онегине слились». Письмо свое ей «страшно перечесть», она это подчеркивает в последних строках: «Стыдом и страхом замираю... Но мне порукой ваша честь, и смело ей себя вверяю...».

Надежду Татьяны Онегин не оправдал, но ник-



то не может упрекнуть, что он оказался недостойным ее доверия. Он не бросился соблазнять ее, хотя для этого и волочиться не надо было. «Получив посланье Тани, Онегин живо тронут был... Быть может, чувствий пыл старинный им на минуту овладел; но обмануть он не хотел доверчивость души невинной». Татьяна, по мнению Онегина, достойна другой судьбы: «полюбите вы снова». Движимый, несомненно, лучшими чувствами, он предупреждает: «Учитесь властвовать собою; не всякий вас, как я, поймет; к беде неопытность ведет».

Сколько всякого обрушилось на Онегина за это наставление! До сих пор помню взволнованно-разъяренные слова школьной учительницы, сорокалетней старой девы: «Как он посмел говорить так с влюбленной до смерти (?!) девушкой, где у него была совесть, мужское достоинство?». Небезынтересно, что сам Пушкин иначе оценивает ситуацию: «Вы согласитесь, мой читатель, что очень мило поступил с печальной Таней наш приятель; не в первый раз он тут явил души прямое благородство».

Татьяну вскоре после отъезда Онегина тетушки уговорили уехать в Москву, «на ярманку невест». «И вот: по родственным обедам развозят Таню каждый день». Однако она не вписалась в светское общество, ей не нравится «невест обширный полукруг», не подходят предполагаемые женихи. Но вот на горизонте появляется важный объект: «а глаз меж тем с нее не сводит какой-то важный генерал». Будущий суженый сразу не понравился – «Кто? толстый этот...». Но генерал, как известно, и в Москве генерал. И Пушкин с радостью пишет: «... с победою поздравим Татьяну милую мою».

Онегин отправился в «странствия без цели». Вернувшись, он попадает, «как Чацкий, с корабля на бал», где царствует Татьяна. Здесь надо подчеркнуть главное. Онегин встречает совсем другую женщину: «и следов Татьяны прежней не мог Онегин обрести...». И именно в эту новую женщину, а не в прежнюю мечтательную девочку-провинциалку Евгений «как дитя влюблен».

Татьяна, а вслед за ней бесчисленные толкователи романа считают, что причина в том, что она «богата и знатна». Вряд ли в это можно всерьез поверить. Онегин человек не бедный и достаточно знатный. Поэтому явно несправедлив упрек: «Что ж ныне меня преследуете вы?.. Не потому ль, что в высшем свете теперь являться я должна?.. Не потому ль, что мой позор теперь бы всеми был замечен и мог бы в обществе принесть вам соблазнительную честь?» По меньшей мере, это некорректно. Онегин не дал оснований для такого упрека. Да и она в этой своей нотации не отрицает: « Я знаю: в вашем сердце есть и гордость и прямая честь».

Одно из самых цитируемых мест романа – три последние строки: «Я вас люблю (к чему лукавить?), но я другому отдана; я буду век ему верна». Многим ли мужьям, ценящим свою честь, имеющим хоть малую толику гордости, захочется, чтобы его суженая всю жизнь продолжала любить другого?

Есть разные объяснения такого финала. Со времен Белинского бытует утверждение, что Татьяна жертвует своими чувствами во имя долга. Не ясно, перед кем этот долг: перед собой, мужем, об-

ществом? Достоевский сделал уточнение: Татьяна поступает в соответствии со своими религиозными и нравственными убеждениями.

Существует несколько вариантов поведения женщины, оказавшейся в ситуации «замужем за одним, а любит другого, который настаивает на серьезных отношениях». Нормальный вариант – перестать фальшивить, не портить жизнь обоим мужчинам и себе, жить счастливо, действительно выполняя свой нравственный долг, – Татьяна отбрасывает. Она выбирает свой, банальный, достаточно распространенный вариант.

Наша Таня ждет реванша: «И нынче – боже! – стынет кровь, как только вспомню взгляд холодный и эту проповедь...» Она не упускает возможности потоптать падшего к ее ногам: «Она его не подымает и, не сводя с него очей, от жадных уст не отымает бесчувственной руки своей...» Она всячески показывает, что выше успехов «в вихре света». И то, что она будет «век верна» другому – самовозвышение: я не такая, я особенная, правильная.

У Татьяны есть объективные основания для надменной демонстрации своей нравственности. Вспомним: после отъезда Онегина из его поместья она у ключницы Анисьи «просит позволенья пустынный замок навещать, чтоб книжки здесь одной читать». Читает она целенаправленно, ее интересует не содержание, а то, «какою мыслью, замечаньем бывал Онегин поражен». По книгам Онегина она разумеет, «в чем молча соглашался он. На их полях она встречает черты его карандаша. Везде Онегина душа себя невольно выражает». Добравшись без спроса до души своего кумира, бессовестно копаясь там, Татьяна начинает «понимать теперь яснее – слава богу – того, по ком она вздыхать осуждена судьбою властной: чудак печальный и опасный, созданье ада иль небес, сей ангел, сей надменный бес, что ж он? Ужели подражанье, ничтожный призрак... Чужих причуд истолкованье, слов модных полный лексикон?.. Уж не пародия ли он?»

Оценка не совсем справедливая, явно односторонняя. Но Татьяна нашла, что искала отнюдь не нравственным способом. И поставила диагноз: «Ужель загадку разрешила? Ужели слово найдено?» Убедив себя, что это так, она и меняет «милый, тихий свет на шум блистательных сует». «Для бедной Тани все были жребии равны». Для оказавшейся весьма практичной Татьяны Лариной «равнее» других оказался знатный генерал. «Как изменилася Татьяна! Как твердо в роль свою вошла! Как утеснительного сана приемы скоро приняла!»

Таким образом, дело не в особой нравственности и религиозности, не в том, что «другому отдана». Копаясь в чужих записях, Татьяна поняла то, о чем говорил ей сам Онегин: что он не создан для уютного семейного провинциального счастья. Была бы она генеральской женой или нет, в любом случае Онегин – не герой ее романа, и она пользуется возможностью реванша за свои детские признания в любви.

Вот такая у меня получается в размышлениях над строчками Пушкина картинка. Не возражаю: Ларина – идеал, но хотелось увидеть, какой это идеал на самом деле. Снять розовые школьные очки и утереть давние слезы от образа «типичной



русской женщины, воплотившей лучшие черты».

Кто-то, несомненно, обрушится на меня с обвинениями. Не настаиваю, что написанное – единственно верный подход к анализу бессмертных строчек. Но один из возможных. Руководствовался я словами самого поэта, завершающими роман: «Чего бы ты за мной здесь ни искал в строфах небрежных, воспоминаний ли мятежных, отдохновенья ль от трудов, живых картин, иль острых слов, иль грамматических ошибок, дай бог, чтоб в этой книжке ты для развлеченья, для мечты, для сердца, для журнальных сшибок хотя крупицу мог найти».

Владимир СПЕРАНСКИЙ

"Студенческий меридиан" №11, 2008
www.stm.ru

Elmira ƏHMƏDOVA,
fəlsəfə elmləri namizədi

ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA SOSİAL MÜHİTİN ROLU

İndiki dövrdə cəmiyyətimizdə baş verən ictimai siyasi hadisələr, əsaslı dəyişmələr zamanın fövqündə dayanmağı bacaran, öz işi və əməli ilə dədə-babalarımızın ənənələrini yaşada bilən, dünənimizə hörmətlə yanaşıb sabahımızı görməyə çalışan hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasını tələb edir. Hərtərəfli inkişaf etmiş insan deyəndə, aydındır ki, təkcə ali savadlı və geniş elmi dünyagörüşlü adamlar deyil, həm də fiziki və mənəvi kamilliyi ilə nümunə olan, dar bilik dairəsini yararaq universal biliklər sisteminə yiyələnən, habelə sözün həqiqi mənasında sosial cəhətdən yüksək səviyyəli şəxsiyyət başa düşmək lazımdır.

Məlumdur ki, cəmiyyətlə şəxsiyyətin qarşılıqlı münasibəti sosial idrakın mühüm məsələlərindən biridir. Bu məsələnin yeni cəmiyyət quruculuğu təcrübəsi üçün böyük əhəmiyyəti vardır. Buna görə də, şəxsiyyətin təbiəti, mahiyyəti, həyat və fəaliyyətinin sosial şəraiti, şəxsi mənafe ilə ictimai mənafenin ahəngdar əlaqələndirilməsinin müqəddəm şərtləri və şəraiti bu məsələdə ön plana çəkilməlidir.

Mövcud ədəbiyyatda şəxsiyyətdən bəhs edilərkən göstərilir ki, «şəxsiyyət» anlayışının məzmununu aşkara çıxarmaq üçün, hər şeydən əvvəl, sosial varlıq olaraq insanın mahiyyətini müəyyən etmək lazımdır. Çünki şəxsiyyətlər yalnız insan cəmiyyətində mövcuddur. İnsan yer üzərindəki canlıların ən yüksək, ali pilləsi olmaqla istimai fəaliyyətin və mədəniyyətin subyektidir. Odur ki, o, fəlsəfənin əbədi problemlərindən biridir. Müasir elmi-texniki tərəqqi və sosial dinamizm şəraitində insan problemi daha böyük əhəmiyyət kəsb edir.

İnsan probleminin hərtərəfli izahı onun sosial mahiyyətinin aşkar edilməsini, şüur və fəaliyyətinin motivlərinin müəyyən olunmasını, onun həyat tərzinin müxtəlif tarixi formalarının, ondakı bioloji meyllərin meydana çıxarılmasını tələb edir. İnsanı bu ictimai əlaqə və münasibətlər xaricində təsəvvür etmək mümkün deyil. İnsanın mahiyyəti ayrıca bir fərdə məxsus mücərrəd bir şey deyil, o, ictimai münasibətlərin məcmusudur.

İnsanın mahiyyətini, onun mənşəyini, cəmiyyətin yaranmasını dərindən öyrənmək üçün antropososiogenezisi bilmək lazımdır. İnsana ictimai münasibətlərin məcmusu kimi verilən tərifdən belə bir nəticə çıxarmaq olmaz ki, o yalnız sosial varlıqdır. Antropososiogenezis dedikdə insanın və cəmiyyətin mənşəyi nəzərdə tutulir. Antropogenezis insanın fiziki tipinin əmələ gəlməsini, onun əmək fəaliyyətinin, nitqinin və eləcə də cəmiyyətin inkişaf mərhələlərinin başlanğıcını, onların təkamül prosesini, bu prosesin amillərini, gedişini və qanunauyğunluqlarını öyrənir. Antropoloji prosesdə insanın təkamülündə, tarixi inkişafında əsas amil əmək fəaliyyəti olmuşdur.

Başqa canlılardan fərqli olaraq insan təbiətdə hazır tapdığı nemətləri istifadə etməklə kifayətlənmir, ona lazım olan həyat vasitələrini özü istehsal edir, yaradır. İnsan özünün ictimai – dəyişdirici istehsal fəaliyyəti gedişində təbiətə fəal müdaxilə edir, onu xeyli dərəcədə öz tələbatına uyğun şəkildə dəyişdirir. Onun əmək fəaliyyəti şüurlu xarakter daşıması ilə səciyyələnir. İstehsal prosesində insan bir tərəfdən özünün malik olduğu bilikləri tətbiq edir, maddiləşdirir, digər tərəfdən isə yeni-yeni biliklərə yiyələnir, təbiət cismlərinə xas olan əlaqə və mahiyyətin yeni-yeni tərəflərini aşkara çıxarır.

İnsanlar həm tarixin məhsulu, həm də onun yaradıcılarıdır. Deməli, təbiəti dəyişdirməyə, onu öz tələbatına uyğun şəklə salmağa yönələn əmək fəaliyyəti insanın başlıca fərqləndirici keyfiyyətini, onun digər keyfiyyətlərini müəyyən edən ən dərin mahiyyətini ifadə edir. İnsanların cəmiyyətdə davranış və hərəkəti nəticə etibarilə onların istehsal fəaliyyəti və istehsal prosesində qarşılıqlı münasibətləri ilə müəyyən edilir. Məhz bu iki tərəf insanın simasını formalaşdıran başlıca amillərdir.

İctimai münasibətlərin və əvvəlki nəsillərin yaratdığı təcrübənin mənimsənilməsi birinci növbədə insanın istifadə etdiyi əmək alətləri vasitəsilə həyata keçirilir. Bu əmək alətləri özündə müxtəlif nəsillərin bilik və təcrübəsini maddiləşdirir. Köhnə nəsillərin təcrübəsi həm dil, həm də yazılı məlumat ilə yeni nəslə keçir. Beləliklə, hər bir dövrdə insan sanki özündən əvvəlki nəsillərin çiyinləri üzərində durur, özü daim yüksəlir və dünyanı daha dərindən dərk edir.

Sosial təcrübənin mənimsənilməsi iki yolla baş verir. Bu proses, bir tərəfdən, hər bir insanın bilavasitə, öz təcrübəsi vasitəsilə olur. İnsan onu əhatə

edən predmet və hadisələrlə bilavasitə təmasda olur, onları dərk edir. Digər tərəfdən isə, insan başqalarının əldə etmiş olduğu təcrübəni dolayısı ilə mənimsəyir. Başqa insanların malik olduğu təcrübə elmdə, mədəniyyətdə, əxlaqi normalarda, hüquqi normalarda və s.-də maddiləşmiş şəkildə çıxış edir.

İnsanın yaranması ilə birlikdə onun sosial mahiyyəti də meydana gəlmişdir. Təbii seçmə qanunu tədricən məhdudlaşmış və sonra isə fəaliyyətini dayandırmışdır, cəmiyyət ictimai qanunlar üzrə inkişaf etməyə başlamışdır. İnsanda bioloji və sosial keyfiyyətlərin qarşılıqlı nisbətində ikinci tərəf aparıcı yer tutur. Müasir elm sübut edir ki, insanın sosial mahiyyəti bioloji, genetik irsiyyət vasitəsilə deyil, ondan daha yüksəkdə duran sosial irsiyyət kanalları vasitəsilə nəsildən-nəslə keçir.

Hər bir cəmiyyətdə sinif və ictimai qrupların görüşlərinin, baxışlarının, əxlaqının formalaşdırılmasında sosial amillər üstün rol oynayır. Lakin onların öz daxilində ayrı-ayrı fərdlərin davranışı birbirindən fərqlənir. Bu onu sübut edir ki, bu və ya digər konkret fərdin fəaliyyətində sosial tərəf ilə bioloji tərəfin qarşılıqlı təsiri mürəkkəb xarakter daşıyır. Bioloji tərəf ilə sosial tərəfin qarşılıqlı təsiri insanın psixi fəaliyyətində, şüurunda daha aydın görünür. Şəxsiyyətin formalaşması və inkişafında fizioloji, xüsusilə də psixoloji proseslər mühüm əhəmiyyət kəsb edir. İnsanın şüuru ilə, onun həyat şəraiti ilə, ictimai varlığı ilə müəyyən edilir. Bununla yanaşı, fərdin əhval ruhiyyəsinə, xarici təbii mühit (iqlim, hava şəraiti və s.) müəyyən təsir edir. Beləliklə, hər bir insan həm təbii, həm də sosial keyfiyyətləri əxz edir və onları irsən keçirir.

Öz ictimai fəaliyyəti gedişində insan təbii, bioloji keyfiyyətlərini dəyişdirir, lakin məhv etmir. Buna görə də, insanda bioloji ilə sosial tərəfin qarşılıqlı əlaqəsi sıradan çıxmır, əksinə, daha da inkişaf edir. Onu da qeyd edək ki, şəxsiyyətin başlıca müəyyənedici cəhətləri (cəmiyyətdə davranışı, başqa insanlara, təbiətə münasibəti və s.) onun bioloji tərəfi ilə müəyyən edilmir, insanın ictimai varlığı, ictimai praktiki fəaliyyəti əsasında yaranır, formalaşır.

Şəxsiyyətə xas olan keyfiyyətlərdən biri də fərdilikdir. Fərdilik, fərdi keyfiyyətlər bu və ya digər şəxsiyyətin yalnız ona xas olan və onu başqalarından fərqləndirən xüsusiyyətlərini ifadə edir. Şəxsiyyət isə insanın həm fərdi, həm də ümumi cəhətlərini ifadə edir. Şəxsiyyət insanı bütöv bir tam kimi səciyyələndirir, yəni onun fərdi xüsusiyyətləri ilə ümumi sosial mahiyyətini vəhdət halında götürür. İnsanın sosial mahiyyətinin qəbul olunması onun fərdi xüsusiyyətlərini nəzərə almamaq demək deyildir. Bu cür fərdi xüsusiyyətlərin nəzərə alınması həm praktikada (kadrların seçilməsi və yerləşdirilməsi işində), həm də etik nöqteyi-nəzərdən (hər bir adamın insani sərvətlərə malik olma dərəcəsinin müəyyən edilməsi və ona hörmət göstərilməsi baxımından) çox mühümdür. Fərdlərin fəaliyyəti müxtəlif və rəngarəngdir. Bu isə bir tərəfdən sosial mühitin ümumi təsiri, digər tərəfdən insanın həyat şəraitinə daha yaxın olan mikromühitin təsiri altında yaranır. Hətta eyni mikromühitdə (məsələn, bir ailədə) böyüyən insanların sosial taleyi də bəzən eyni olmur, çünki bu tale sırf fərdi şəkildə yaranır, yəni həmin insanın özünün fəaliyyətindən asılıdır.

Deməli, şəxsiyyətin təşəkkül tapması, formalaşması prosesini təkcə onun ictimai münasibətləri, mədəniyyət nailiyyətlərini, əxlaqi norma və sərvətləri mənimsəməsi prosesindən ibarət hesab etmək olmaz. Bu prosesdə həm də subyektin özünün fəaliyyəti, öz üzərində çalışması böyük rol oynayır. Buna görə də, şəxsiyyət təkcə tərbiyənin deyil, həm də özünün tərbiyəsinin məhsuludur. Buradan məlum olur ki, insanın mahiyyəti ümumi, xüsusi və təkcənin vəhdətidir.

Hər bir şəxsiyyətin formalaşması, hansı həyat yolunu seçməsi onun təcrübəsindən, konkret həyat şəraitindən, iş yoldaşlarının ona təsirindən, oxuduğu kitablardan, kütləvi informasiya vasitələrinin təsirindən çox asılıdır. Şəxsiyyətin formalaşmasında sosial mühitin rolu bundadır ki, məhz həyatın özü insanı formalaşdırır və tərbiyə edir. İnsan öz fəaliyyəti vasitəsilə sosial mühitə təsir edir, eyni zamanda özü də onun təsirinə məruz qalır. Tarixin dialektik anlaşılması sübut edir ki, insan ilə sosial mühit arasındakı münasibət insanların ictimai praktiki fəaliyyətində bu iki tərəfin dialektik qarşılıqlı təsirini ifadə edir.

Şəxsiyyət anlayışı biososial varlıq olan insanın ancaq sosial tərəfini ifadə edir və onda olan sosial tərəfin inkişaf dərəcəsini göstərir. Şəxsiyyətin başlıca cəhəti onun sosial fəaliyyətidir. Şəxsiyyət sosial mühitlə qarşılıqlı təsir prosesində formalaşır.

ƏDƏBİYYAT

1. Ramazanov F. Fəlsəfə. Bakı, 1997.
2. Şükürov A. Fəlsəfə. Bakı, 1996.
3. Ильин В. В.. Философия. Москва, 1999.
4. Спиркин А.Г. Философия. Москва, 2000.
5. Философия. Учебное пособие. Москва, 1996.

НИЛУФЕР

СТАРЫЙ АЛЬБОМ



«Здравствуй, дорогая и милая моя Эл! Как же давно нет от тебя вестей. Я часто вспоминаю тебя и очень скучаю по тем дням нашей беззаботной и счастливой юности. Знаешь, на днях мне попался на глаза старый школьный альбом. Я уже думала, что потеряла его при переезде, и, обрадовавшись находке, сразу же начала рассматривать наши фотографии. Вся жизнь, с первого класса до последнего, пронеслась перед глазами. Сейчас эти фотографии, как кадры из любимого фильма, который смотрела когда-то давно. Много раз я перелистывала этот альбом, пытаясь найти что-то новое, а, может быть, и забытое старое на этих с годами потускневших фотографиях. Как жаль, что их не очень-то много. Сейчас я снова взяла в руки этот альбом. Смотрю и удивляюсь. Что же время творит с нами?

Вот тут мы в первом классе – ты и я, сидим рядом. У обеих косички, белые бантики. Я сижу такая робкая, а ты, наоборот, улыбаешься.

А тут мы на празднике Азбуки. На головах у нас короны, сделанные из картона: на моей нарисована буква «Д», а на твоей – «П». Я помню, как ты говорила, что эти наши буквы означают «Две Подруги».

На этой фотографии мы уже в четвертом классе. Нас всем классом сфотографировали на выпуском празднике начальных классов. Все девочки одеты в белые блузки, а мальчики – в белые рубашки. Как ни странно, я отчетливо помню этот день. Помню, как Ольга Николаевна – наша первая учительница, такая растроганная, со слезами на глазах раздавала нам дипломы, наш первый диктант, первый рисунок и эту фотографию, снятую за неделю до праздника.

Все так меняется! Из милой маленькой девочки ты превращалась в обворожительную девушку, которую почти все обожали. Многие мальчики в школе были влюблены в тебя и, так как мы были подругами, мне часто приходилось передавать тебе записки или слова любви и восхищения от бесчисленных поклонников. Как странно, раньше ты так стеснялась устремленных на тебя взглядов, сделанных комплиментов. Ты краснела, и мне это очень нравилось в тебе. Может, ты и не знала, что твои умственные способности, великолепная память, дикция, манера держаться всегда были для меня примером. Правда, рядом с тобой меня не замечали, но это никогда меня не смущало, и это чистая правда. Ты была для меня больше чем друг, я любила тебя, как родную сестру.

Проходили месяцы, годы, мы взрослели. Вот фотография, где мы с тобой и двое других ребят рядом с нами. Но они оба – `твои поклонники.

Дорогая моя Эл, я помню, как менялись твои нравы. Как говорил наш старый учитель истории, которого ты называла склеротиком, так как он вечно путал даты: «Honores mutant mores, sed raro in meliores», что означает «Почести меняют нравы, но редко на более хорошие». Со временем ты привыкала к вниманию ухажеров и считала, что это в порядке вещей. Иногда, если на тебя не обращал внимания какой-то парень, это выводило тебя из себя. Обычно по гороскопу эти ребята были львами.

Ты очень интересовалась гороскопами и знала знаки зодиаков всех в классе. Боже, как ты ненавидела львов, и какое же удовольствие тебе доставляло подчинять их себе, и иногда в шутку ты называла себя «укротительницей львов».

Честно говоря, все это мне уже не очень нравилось, но я молчала, так как ты ненавидела критику. Сейчас я понимаю, что плохо поступала, не по-дружески, потому что человек должен со своим другом быть не только солидарным, но и честным, должен уметь говорить ему о его недостатках и указывать на ошибки. А я тогда боялась этого и считаю это своей слабостью.

Помнишь, как-то раз в десятом классе, когда заболела учительница литературы, мы сидели и обсуждали тему замужества. Тогда ты шокировала всех, сказав, что разобьешь голову своему мужу, если тот обидит тебя. Это было сказано как бы в шутку, но звучало так правдоподобно и жестоко, что все с неприязнью посмотрели на тебя. Потом ты стала говорить, что никто не посмеет тебе перечить, что ты не будешь мыть посуду, готовить еду, что отдашь всю себя только любимой работе, а муж будет воспитывать детей. Говорила, что домашние заботы не для тебя, потому что ты рождена стать кем-то особенным, очень известным. Назвала себя королевой своей судьбы. Я тогда ужаснулась, открыв для себя новые черты твоего характера: самовлюбленность и гордыню. Но я никак не хотела верить в то, что это действительно так, и что это навсегда. Все перемены в твоем поведении я считала временными. Как же я ошибалась!

Вот та фотография, сделанная в одиннадцатом классе. Я и ты. Ты рядом, но ты смотришь куда-то в сторону. У тебя такой вид, как будто сделала мне одолжение, сфотографировавшись со мной. С этого же времени ты нашла себе новое развлечение – стала издеваться над двумя тихими и невзрачными девушками нашего класса. Они не были отличницами, как ты, но учились неплохо. Чем они тебе не угодили, я не знаю, но ты умудрялась досаждать им при каждом удобном случае: то подшучивала над запахом их духов, то над немодной одеждой, то над прической. Да, ты и в этом плане была идеальна. Аромат твоих духов всегда был нежным и головокружительно чарующим, одежда – самой изысканной и великолепно сидящей на твоей бесподобной фигуре, а длинные и шелковистые волосы – благоухающе прекрасными. Много раз я была свидетелем горьких слез тех девушек, после твоих дерзких высказываний. Как много раз мне было стыдно за тебя – мою подругу. Если бы я знала, что твоя душа такая же черствая и некрасивая, как твое поведение, клянусь, я бы порвала все наши отношения, не задумываясь ни на секунду. Но я думала, нет, я была уверена, что все это – своего рода приступ эгоизма, вызванный нашими же усилиями, нашим боготворением тебя как идеала. Несмотря на то, что ты считала себя сильной, даже всесильной, ты была слаба перед этим соблазном. Ты не смогла противостоять этому.

Да, милая моя Эл. Мы (учителя, каждый день хвалившие и ставившие тебя в пример другим, родители, ни в чем не отказывающие, всегда лелеющие и холящие, поклонники, надоедавшие своим вниманием и ухаживанием, товарищи, молчаливо соглашающиеся с каждым твоим решением, дабы не потерять твою благосклонность и я – твоя лучшая подруга) виноваты не меньше, чем ты.

Так как я часто бывала у тебя дома, знала и любила твоих родителей – этих прекрасных, интеллигентных и милых людей, то с уверенностью могу сказать, что ты в последнее время огорчала их тоже. Конечно же, ты, как и раньше, получала свои «пятерки», так же с немыслимой скоростью читала книги самых разных жанров и авторов, была аккуратной и чистоплотной, но ты отдалялась от них, отдалялась с каждым днем понемногу. Ты огорчала их своим холодным взглядом, невозмутимостью, непричастностью ни к чему и безразличием. Ты, как самовлюбленный нарцисс, думала только о себе и ни о ком другом.

Как-то раз ты сказала: «Тот, кто не со мной, тот против меня», и это стало последней точкой в истории нашей с тобой многолетней дружбы. Самое досадное, что ты этого даже не заметила. Я отдалилась от тебя так же, как ты отдалилась от самой себя – от той самой милой девочки, с которой я познакомилась в первом классе, первого сентября во дворе школы. Я никогда не за-

буду, как была напугана, а ты подошла ко мне, такая уверенная и спокойная, и спросила мое имя, потом назвала свое. Так началась наша дружба. Мне было очень трудно писать о том, как она закончилась, но знай одно – что бы там ни было, я тебя никогда не забуду. Ты дала мне очень многое: сначала свою дружбу, прекрасные воспоминания о школе и, наконец, самое главное – жизненный урок. Благодаря тебе я поняла, как это важно – не потерять себя, и еще я поняла значение слова «друг». Друг – это тот, кто рядом, не позади тебя и не впереди. Я надеюсь, что хоть изредка и ты меня вспоминаешь. Прости меня за эти откровения, Эл. Хотя ты их и никогда не услышишь, так как я написала это письмо мысленно, перелистывая старый школьный альбом».

СТИХИ

То, чего совсем не ждали,
То, о чем и не мечтали,
Средь ниспосланных чудес -
Дар любви и дар небес
Мы наивно принимали…
И по глупости теряли.

ТАК ИЛИ ИНАЧЕ …

Так или иначе, пролетают годы,
Долго иль не очень терпим все невзгоды.

Горько или сладко, помним то, что было,
Мутно или четко в памяти застыло.

Много или мало сон и явь похожи.
Поздно или рано понимаем тоже.

Мимо или в точку куда-то попадаем.
Вместе, в одиночку от любви страдаем.

Şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması və fəaliyyətinin stimullaşdırılması

Şagirdlərin özünütərbiyə işinin fəallaşdırılmasında fəaliyyətin stimullaşdırılması xüsusi yer tutur. Bir çox tədqiqatçılar, o cümlədən L.İ.Ruvinski, L.Y.Qordin, B.Q. Ananyev, V.Y.Qumurman əsərlərində davranış və fəaliyyətin pedaqoji stimullaşdırılması metodlarını araşdırmış, bizim aşağıda sadalayacağımız bütün pedaqoji vasitələrdən və metodlardan səmərəli şəkildə istifadə etməyin vacibliyini qeyd etmişlər.

Özünütərbiyə fəaliyyətinin stimullaşdırılması sistemində rəğbətləndirmə, cəzalandırma və yarış mühüm yer tutur.

Özünütərbiyə işinin rəğbətləndirilməsi şagirdə müsbət keyfiyyətlərin aşılanmasına, öz imkanlarına inamın yüksəlməsinə, müsbət davranışın stimullaşdırılmasına kömək göstərir, özünütərbiyəni nümunə əsasında həyata keçirməyə alışdırır. Lakin rəğbətləndirmənin əhəmiyyətini mütləqləşdirmək düzgün deyildir. Özünütərbiyə sahəsində fəaliyyət bəzən şagirdə "özündən razılıq", müştəbehlik, özünə toxtaqlıq vermə kimi mənfi keyfiyyətlərin əmələ gəlməsinə aparıb çıxarır ki, bu da özünütərbiyə işinin səmərəli getməsinin qarşısını alır.

İlk baxışda adama elə görünür ki, şagirdə xəbərdarlıq etməklə bu mənfi cəhəti aradan götürmək mümkündür. Yəni uşağı tərifləmədən də keçinmək olar. Lakin rəğbətləndirmənin nəticəsi bir sıra hallarda müxtəlif olur. Məktəbli həvəsləndirilərkən öz üzərində işləməkdən razı qala bilər və müəyyən dərəcədə əldə olunmuş nəticə onu gələcək fəaliyyətindən çəkinməyə sövq edər. Müştəbehlik kimi mənfi keyfiyyətin yaranmaması üçün şagirdi öz üzərində işləməyi davam etdirməyə alışdırmaq lazımdır.

Rəğbətləndirmə təsir ölçüsü kimi şagirdin özünə qiymətindən asılı olaraq bir sıra xüsusiyyətlərə malikdir. Gücünə, imkanlarına arxayın olmayan uşaqları, adətən, layiq olduqlarından artıq həvəsləndirirlər. Bunun da səbəbi odur ki, həmin şagirdlər tərbiyəçinin etimadını itirməmək, özlərini doğrultmaq üçün öz üzərində daha yaxşı çalışmağa başlayırlar. Lakin öz qüvvəsini, imkanlarını həddindən artıq şişirdən uşaqlar üçünsə rəğbətləndirmə məhdudlaşır.

Birinci halda şagirddə müştəbehlik, ikinci halda inamsızlıq kimi mənfi xüsusiyyətlərin əmələ gəlməsinə yol vermək olmaz. Əks-təqdirdə, formal rəğbətləndirmə məktəblilərin öz öhdəliklərinə müəllimlər, kollektiv, böyüklər qarşısında "borc" kimi münasibət yarada bilər.

Tədqiqat belə bir nəticəyə gəlməyimizə əsas verir ki, şagird yalnız öz tələbləri ilə şəxsi keyfiyyətləri arasındakı ziddiyyəti aydın anladıqdan sonra onda şəxsiyyətin daxili ziddiyyətlərinin formalaşması və öz-özündən narazılıq yaranır ki, bunlar da məktəblini aktiv fəaliyyətə istiqamətləndirir. Bu vaxt şagird uğursuzluğun səbəbini öz çatışmazlıqlarında görür. Öz qüsurlarının şəxsi mahiyyətini anlamaq, özündən narazılıq şagirddə səhvlərini düzəltmək istəyi yaradır.

Əgər məktəbli öz çalışmazlıqlarını və yaxud səhvlərini başa düşmürsə, onları yalnız tərbiyəçidən eşitməklə kifayətlənirsə və bunları mücərrəd şəkildə təsəvvürünə gətirirsə, bütün bu qüsurlarını özününkü kimi qəbul etmir. Təcrübə göstərir ki, səhvlərin, çatışmazlıqların sadəcə izahı şagirddə heç də həmişə daxili narazılıq yaratmır. Bu biliklər formal olaraq, söz şəklində qalaraq fəaliyyətin mahiyyətinə təsir etmir.

Bu zaman pedaqoji tələbkarlıqdan, ictimai rəydən və ixtilaflı vəziyyətlərdən də müvəffəqiyyətlə istifadə etmək mümkündür.

Daxili ziddiyyətlərin formalaşmasında, çatışmazlıqların başa düşülməsində və onların aradan qaldırılmasında cəzalandırma da mühüm əhəmiyyət daşıyır. Lakin cəza müsbət təsirlə yanaşı, mənfi nəticəyə gətirib çıxara bilər. Bu, cəzanın düzgün verilmədiyi halda baş qaldırır və şagirdlə tərbiyəçi arasında olan yaxşı münasibəti pozur, hətta məktəblini digər mənfi hərəkətlərə istiqamətləndirir. Odur ki, cəzalandırma metodunun tətbiqində bəzi cəhətlərin nəzərə alınması vacibdir: birincisi, cəzalandırma zamanı şəxsiyyətin qüsurları diqqətdən yayınmamalıdır; ikincisi, pis hərəkətlərin motivlərinin nədən ibarət olduğu aydınlaşdırılmalıdır. Çünki ola bilər ki, şagird yaxşı bir hərəkət etmək istərkən səhvə yol vermişdir.

Əgər hərəkət şəxsiyyətin çatışmazlığından, onun pis vərdişlərindən, adətlərindən irəli gəlirsə, onda cəza səmərəli təsir vasitəsi ola bilər.

Professor M.Ə.Muradxanov "Məktəblilərin idarə tərbiyəsinin prinsip və idarə üsulları" əsərində qeyd edir: "Uşaq əxlaqi hərəkət edərkən onu tərifləyirlər. O, bundan həzz alır. Bu zaman tərifləmələ yaxşı hərəkət arasında assosiativ əlaqə yaranır. Uşaq həmin həzz hissini bir də yaşamaq üçün yenə əxlaqi hərəkət edir. Eləcə də, pis hərəkət cəza ilə nəticələnir. Uşaq isə cəzadan kədərlənir, iztirab çəkir. Bu iztirab hissi ilə pis hərəkət arasında assosiativ əlaqə yaranır. Uşaq bir daha həmin iztirab hissini yaşamamaq üçün o hərəkətdən daşınır. Yaxşı hərəkət üçün rəğbətləndirmə və pis hərəkət üçün cəzalandırmanın əxlaqa təsirinin mexanizmi belədir".

Tənqid nəinki tərbiyədə, həmçinin özünütərbiyədə də böyük əhəmiyyətə malikdir. Tənqid şagirdə öz çatışmazlıqlarını başa düşməkdə və onları aradan qaldırmaqda kömək edir. Şəxsiyyətin xarakterindən, şəraitindən və hərəkətdən asılı olaraq, tənqid yumşaq, yaxud da kəskin ola bilər. Hər iki halda o, nikbin səciyyə daşımalıdır. Valideyn uşağı tənqid etməklə yanaşı, həm də səhvlərin yeniyetmənin öz gücü ilə aradan götürülməsi imkanları haqqında da məsləhətlər verməlidir. Bu vaxt uşağı öz gücünə inandırmaq əsas şərtdir. Bunsuz özünütərbiyə mümkün deyildir.

Səyyarə QƏHRƏMANOVA,
Azərbaycan Dillər Universitetinin baş müəllimi

Tələbələrimizin yaradıcılığı

UĞUR OLSUN!



Ərşad Məhərrəmlini Xəzər Universitəsinə daxil olduğu günlərdən tanıyıram. Ara-sıra redaksiyamıza gəlir, jurnalımızda dərc edilmiş yazılara münasibətini bildirirdi. İlk sırada milli, vətənpərvərlik mövzuları ilə bağlı məsləhətlər alır, öz düşüncələrini də məqalələrə çevirmək istəyirdi. Sözarası vətən ovqatlı, millət duyğulu şeirlər yazdığını da öz dilindən öyrənmişdim.

Bu semestrdən hər həftə dərslərdə görüşdüyümüzdən Ərşadı bir az da yaxından tanıya bilmişəm. Humanitar və sosial elmlər fakültəsində filologiya ixtisasına yiyələnən bu gənc sadə, səmimi, mədəni oğlandır. Ən başlıcası isə çalışqandır, daim öyrənməyə can atır. Biliyini, elmini, dünyagörüşünü artırmağa səy göstərir. Azərbaycan ədəbiyyatının incəliklərinə varmağa, klassik və çağdaş şair-yazıçılarımızın həyat-yaradıcılıq xüsusiyyətlərini dərindən mənimsəməyə çalışır.

Ərşad sirli-sehrli poeziya aləmində hələ ilk addımlarını atır. Zəngin ədəbiyyatımızı canına-qanına hopdura-hopdura özü də ilhamlı çağlarında ürəyindən keçən duyğuları kağıza köçürür. Onun, əsrarəngiz şeir dünyasını daha dərindən kəşf etmək üçün ciddi mütaliə ilə məşğul olacağına, zaman-zaman poetik imkanlarını göstərə biləcəyinə ümid bəsləyirəm.

Elə bu xoş ümidlə də Ərşadın iki şeirini "Xəzər Xəbər"in poeziyasevər oxucularına təqdim edərək, ona təhsilində və yaradıcılığında uğurlar arzulayıram.

Knyaz ASLAN

Ərşad Məhərrəmli

Qarabağım, Göyçəm, Təbrizim

Mən hara, dünyanın sirləri hara,
Nə vaxtdır vətənim düşübdür dara,
Dönə bilməyirəm doğma diyara,
Gedib Qarabağım, Göyçəm, Təbrizim...

Bəzən döyüşürəm özüm-özümlə,
Zəfər gözləyirəm hər gün dözümlə.
Dərdimi bildirim hansı sözümlə?
Gedib Qarabağım, Göyçəm, Təbrizim...

Dəyişir insanlar, dolanır zaman,
Dərd üzür xalqımın qəddini yaman...
Qalmayıb ümiddən özgə bir güman,
Gedib Qarabağım, Göyçəm, Təbrizim...

Şirin xəyallar

Hər gecə yadıma o günlər düşür,
Xəyallar keçmişə aparır məni.
Yenə həmin yerdə biz görüşürük,
Yenə öz yanımda görürəm səni.

Sənin əllərinə toxunur əlim,
O isti nəfəsin üzümə dəyir.
Bu şirin görüşdən ayrılanda biz,
Bülbüllər hicrandan nəğmələr deyir.

...Bir də ayılanda düşüncələrdən,
Görürəm özümü tənha dayanmış...
Sən başqa şəhərdə, mən başqa yerdə,
Sən demə, bayaqdan xəyaldayammış.

Könül Seyidova

"BİR QUŞ QƏDƏR DƏ OLA BİLMƏDİM..."

(hekayə)



Seyidova Könül Məmməd qızı 1990-cı ildə Bakı şəhərində anadan olmuşdur. 2008-ci ildə Bakının Nizami rayonundakı 32 saylı orta məktəbi bitirmişdir. Hazırda Humanitar və sosial elmlər fakültəsinin birinci kurs tələbəsidir.

Küləkli bir oktyabr günü idi. Təbiətdə bir dəcəllik baş qaldırmışdı. Hündür otlar küləyin ucbatından ilan kimi qıvrılırdı. Həyətdəki əncir ağacının budağı öz ovunu tutmağa çalişan kobud bir ovçuya bənzəyirdi. Küləyin qovduğu tut ağacının quru budağı əncir ağacının yanından elə keçdi ki, elə bil hansısa fəlakətdən öz canını qurtarmağa çalışırdı...

...Aysel məktəbdən evə gəlirdi.Sarışın qıvrım saçları qızın üzünə səpələnmişdi. Bloka girmək istəyəndə qapının iç tərəfində bir körpə gördü. Körpə elə ağlayırdı ki, gözünün yaşı yaxasını islatmışdı. Ayseli vahimə bürüdü. Təxminən bir yaşında olan qız uşağı idi. Köhnə, mavi rəngli, çirkli adyala bükülmüşdü. Ağ rəngli krujevalı papağın üstündən başına çəhrayı rəngli ləçək bağlanmışdı. Ağappaq, toppuş əlləri soyuqdan buza dönmüşdü. İri gözləri, uzun kirpikləri bəyaz çöhrəsinə yaraşıq verirdi. Aysel cəld pilləkənlərlə yuxarı qaçmağa başladı. Hövlnak zəngi basdı. Anası Sevda tələsik mətbəxdən çıxaraq, göyərtiyə bulaşmış əllərini təmizləmədən qapını açdı.

- Xoş gəldin, mənim gözəl qızım!

- Ana, ana, tez düş aşağı.Gör nə olub...

- Ay bala, nə var, nə olub? Nə görmüsən, bir başa sal, qızım!

- Ana, başa salmaq vaxti deyil.Tez düş aşağı...

Sevda başmaqlarını geyib, iti addımlarla aşağı düşməyə başladı.

- Aman Allah, bu nədir? Kim qoyub bu zavallı körpəni bura?

Səsə qonşular yığışdılar. Uşağın yanında bir qəzet qırığı var idi. Üstündə yazılmışdı: "İsmayılova Şəbnəm. Bir yaş iki aylıq. Müəyyən səbəblərə görə qızıma baxa bilmirəm. Xahiş edirəm, övladıma sahib çıxasınız." Körpə dayanmadan için-için ağlayırdı.

Qonşuların hərəsi bir tərəfdən:

- Can bala, can! Gör necə için çəkir, yaziq körpə...

- Allah insafını kəssin, bala yiyəsi. Gör necə gözəldir...

Sevda uşağı evlərinə apardı, bir təhər yedirib-içirdi. Lakin körpə ağlamağını kəsmirdi. Ağlamaqdan gözləri qızarmışdı.

Sevda:

- Ay Allah, sən kömək ol! Görəsən, bu uşağa nə olub? – deyə həyəcan keçirirdi.

Birdən qapı döyüldü. Sevdagilin qapı qonşusu Sona içəri girdi. Əlində bir paket var idi.

- Ay bacı, bizim Nigarın paltarlarıdır. Kiçilib, əyninə olmur.

- Sağ ol, bacı! Gətirim bu balaca quzunun paltarlarını dəyişim.

Zavallı körpə yenə də ağlayırdı. Sevda körpəni qucağına alaraq, ovutmağa çalışırdı. Nəhayət ki, balaca qız yuxuya getdi. Sevda körpəni çarpayıya qoyanda gözünə nə isə sataşdı. O, körpənin ovucunun içinə baxaraq:

- Aman Allah, göydən daş yağdır, bu nə dəhşətdir? İnsan da öz balasına qarşı bu cür insafsız ola bilərmi? Ay Sona, hələ bir buna bax!

- Vay, evin yıxılsın uşaq yiyəsi. Allah, sən özün bir yol göstər.

Uşağın düz ovcunun içi yanmışdı. Yanıq elə dərin idi ki, ətinin içi görünürdü.

Sevda:

- Eh, əlimizə bir tikan batsa, hay-harayımız aləmi götürər. Qaldı ki bu biçarə. Səhərdən deyirik, niyə kirimir. Can bala, can! Necə dözürsən bu kiçik canınla?

Aysel:

-Ana, nə edək?

- Qızım, zəng vur təcili yardıma. Çağır, görək başımıza nə gəlir. Sonra da polisə zəng vuraq, gəlib tədbir görsünlər. Allah qorusun, sonra üstümüzə düşərlər ki, uşağı oğurlamısınız.

Aysel telefonun dəstəyini götürüb təcili tibbi yardıma zəng vurdu.

Bütün qonşular təlaş içərisində idilər. On dəqiqə keçmişdi ki, təcili tibbi yardım özünü yetirdi.

- On altı nömrəli mənzil burdadır?

- Bəli, buyurun keçin.

Həkimlər uşağın hərarətini ölçdülər, 39 dərəcə idi.

Tibb bacısı:

- Təcili xəstəxanaya aparmaq lazımdır. Belə halda evdə saxlamaq olmaz.

Tibb bacısı körpəni qucağına alaraq, iti addımlarla maşına doğru irəlilədi.

Sevda boğuq səslə, gözləri dolmuş halda qonşulara üzünü tutaraq:

- Mən də gedirəm. Biriniz tez polisə zəng vurun, qoy xəbərdar olsunlar.

Sona əli titrəyə-titrəyə telefonun dəstəyini əlinə alaraq:

- 24 nömrəli polis bölməsidir?

- Bəli, buyurun.

- Qara Qarayev küçəsində bir hadisə baş verib. Blokumuza kiçik bir qız uşağı atıblar. Vəziyyəti ağır olduğuna görə xəstəxanaya apardılar.

- Zəhmət olmasa, xəstəxananın ünvanını deyin.

Sona xəstəxananii ünvanını polisə bildirdi.

Nəhayət ki, balaca Şəbnəm xəstəxanaya çatdırıldı. Həkim onu müayinəyə başladı.

Polis işçiləri də gəlib çıxdılar. Növbətçi həkim onlara məlumat verdi.

Sevda polislərə:

- Zəng vuran biz idik. Uşağı blokumuzun ağzından tapmışıq. Sahibsiz qaldığı üçün əvvəlcə evə gətirdik.Uşaq haqqında məlumatı yanındakı kiçik bir kağız parçasından bildik. Kağızda yalnız adı və yaşı göstərilmişdi.

- Bəs siz uşağı evə gətirərkən kimsə bunu gördümü? Şahidiniz kimdir?

- Şahid qonşular.

Sevda xəstəxanaya gələrkən iki nəfər qonşu da onunla gəlmişdi.

Qonşuların hərəsi bir tərəfdən:

- Bəli, biz də bu hadisənin şahidi olduq.

Polislərdən biri:

- Təşəkkür edirik Artıq sizinlə bir işimiz qalmadı. Sonrasını biz araşdıracağıq.

Sevdagil səbrsizliklə həkimdən cavab gözləyirdilər. Həkim otaqdan çıxan kimi Sevda həyəcanla:

-Uşağın vəziyyəti necədir, həkim? – deyə soruşdu.

Həkim:

- Müayinə etdik, vəziyyət ürəkaçan deyil. Uşağın ovcundakı yara dərindir. Uzun müddət baxımsız qaldığı üçün qana infeksiya keçib. Hərarətinin yüksək olması da məhz bu səbəbdəndir.

Sevda:

- Bəs necə olacaq? Necə olacaq bu körpənin vəziyyəti, ay həkim?

Həkim dedi ki, əlimizdən gələni edəcəyik...

Sevdagil fikirli, qəmgin halda evə döndülər. Günlər ötür, həkimlər əllərindən gələni etsələr də, uşağın vəziyyəti daha da ağırlaşırdı.

...Şəbnəmin anası öz səhvini gec də olsa başa düşərək, qızını atdığı həyətə gəlib onun harada olduğunu bilməyə çalışdı. Qonşular Şəbnəmin vəziyyətini ona izah etdilər.

- Ey qansız! Sənin ürəyin necə dözdü ki, əl boyda körpəni atdın küçələrə. Bu azmış kimi, biçarənin ovcunu da yandırdın. Allah sənin kimi anaya lənət eləsin! – deyə, Sevda hönkürtü ilə ağlamağa başladı.

Qonşular qadını da götürüb xəstəxanaya yollandılar. Qadın əli titrəyə-titrəyə həkimin kabinetinin qapısını döyməyə başladı. Həkimin "buyurun, gəlin" sözündən sonra içəri keçdilər. Qadın doluxsunmuş bir səslə "Şəbnəm, mənim balam, gözəl balam necədir?" – deyərək, həkimin əllərindən tutub yalvarmağa başladı.

Həkim dərindən ah çəkərək:

- Deməli, siz onun anasısınız... Acı da olsa, deməliyəm ki...

Qadın hıçqırtılı bir səslə:

- Nəyi, nəyi deməlisiniz? Nə olub mənim balama, nə olub gözəl balama?!

Həkim:

- Başınız sağ olsun...

Bu xəbər onun iliyinə işləyərək bütün vücudunu sızıldatdı, həyatını büsbütün söndürdü, beyni silkələndi, huşunu itirdi. Saçlarını yolaraq ağlamağa, sonra isə gülməyə başladı...

Sonralar günlərini sərsəri-sərsəri dolaşmaqla kücələrdə keçirərdi. Bir gün qəribə hadisə ilə rastlaşdı. Qadın həmişəki adəti üzrə əncir ağacının yarpaqlarını asfaltın üzərinə sərib, üstündə özünə yer edərək oturmuşdu. Birdən binanın başından bir quş balasının düşdüyünü gördü.Qadın bunu görcək, hönkürtü ilə ağlamağa başladı. O, diqqətlə quş balasına nəzər yetirdi. Bu təzəcə doğulmuş quş balasının nəinki qanadı, hətta tükləri belə yox idi. Aradan az keçmiş bir ana quş tələş içində özünü o ağacdan bu ağaca vuraraq balasını axtarmağa başladı. Onu dimdiyinə alıb, yuvasına apardı.

Qadın öz körpəsini gözləri önünə gətirdi. "Eh... Bir quş qədər də ola bilmədim" – deyərək, köksünü ötürdü. O gündən də gah ağlayaraq, gah gülərək hey fəryad edir:

- Bir quş qədər də ola bilmədim... Bir quş qədər də ola bilmədim...

MƏDƏNİYYƏT

"KOROĞLU" VƏ "DƏDƏ QORQUD" MACAR DİLİNDƏ



Noyabrın 18-də Budapeştdə, ölkəmizin Macarıstandakı səfirliyində macar dilində dərc olunmuş "Koroğlu" və "Dədə Qorqud" kitablarının təqdimat mərasimi keçirilmişdir.

Tanınmış macar alimləri İmre Adorian və Laslo Puşkaş Macarıstandakı diplomatik nümayəndəliyimizin təşəbbüsü və dəstəyi ilə dünyada məşhur olan Azərbaycan dastanlarını öz doğma dillərinə tərcümə etmişlər.

Səfir Həsən Həsənov Azərbaycan dastanlarını məharətlə tərcümə etdiklərinə və macar cəmiyyətində tanınmasına imkan yaratdıqlarına görə İmre Adorian və Laslo Puşkaşa səmimi təşəkkürünü bildirmişdir. Həsən Həsənov bildirmişdir ki, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi alimləri bir həftəlik Azərbaycana səyahətlə mükafatlandırmışdır.



Mərasimdə tərcüməçilər İmre Adorian və Laslo Puşkaş və Avropa Folklor İnstitutunun direktoru Mixay Xoppal çıxış etmişlər.

Sonda səfir tərcüməçilərə "Azərbaycan-Macarıstan münasibətlərinə töhfə" fəxri mükafatını təqdim etmişdir. Bu mükafata ölkələrimiz arasında münasibətlərin inkişafına və möhkəmləndirilməsinə kömək edən insanlar layiq görülürlər.

Nəfis tərtib olunmuş hər iki kitab Avropa Folklor İnstitutunun və "L'Harmattan" nəşriyyatlarında çap edilmişdir. Ekspertlərin fikrincə, dastanları Azərbaycan-Macarıstan humanitar münasibətləri tarixində Macarıstanda Azərbaycan mədəniyyəti sahəsində buraxılan ən ciddi nəşr hesab etmək olar.

Kitablar təkcə tarixçilər və filoloqlar üçün deyil, sıravi macar oxucuları üçün də maraqlıdır.

NYU-YORKDA QARA QARAYEVİN YUBİLEYİ

Noyabrın 28-də Nyu-Yorkun məşhur "Karnegi" konsert salonunda Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dünya şöhrətli bəstəkar Qara Qarayevin 90 illik yubileyinə həsr edilmiş xatirə gecəsi keçirilmişdir.

Tədbirdə BMT yanında akkreditə olunmuş diplomatik korpusun, BMT Katibliyinin, ABŞ siyasi partiyalarının, eləcə də Azərbaycan icmasının və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.

Azərbaycanın BMT yanında Daimi nümayəndəsi səfir Aqşin Mehdiyev Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi önəmli töhfələrdən danışmış, Qara Qarayev yaradıcılığının mədəniyyətimizin ayrılmaz hissəsi kimi bu şərəfli missiyada xüsusi yer tutduğunu diqqətə çatdırmışdır. O, həmçinin Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyəti Dostları Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoş məramlı səfiri Mehriban Əliyevanın iştirakçılara müraciətini oxumuş, onlara Azərbaycanın birinci xanımının təbriklərini çatdırmışdır.

Konsertdə pianoçu, Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı Fərhad Bədəlbəyli, Namiq Sultanov, klassik musiqi ifaçısı Gulnaz İsmayılova, Validə Rəsulova, David Leefvre, Dmitri Yablonski, Erin Keefe,



Nurit Pakxt, Bes Quterman, Andrey Çekmazov və Manhetten simfonik orkestrinin ifalarında dahi bəstəkarın "Yeddi Gözəl" baletindən Adajio və Vals, III Simfoniya, "Gürcüstan təpələrində", "Tsarskoyeselo heykəli", kvartet və romansları səsləndirilmişdir.

Azərbaycan musiqi mədəniyyəti tarixində ilk dəfə olaraq ABŞ-da keçirilən bu cür konsert rəngarəng dinləyici auditoriyası tərəfindən alqışlarla müşayiət olunmuşdur.

İDMAN

AZƏRBAYCAN İDMANÇILARININ ALTI QIZIL MEDALI



Noyabrın 29-da Bakıda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində hərbçilər arasında boks üzrə 52-ci dünya çempionatına yekun vurulmuşdur.

Final görüşlərindən sonra yarışın təntənəli bağlanış mərasimi keçirilmişdir.

Beynəlxalq Hərbi İdman Şurasının (CİSM) baş katibi, polkovnik Mişel Van Meurs bildirmişdir ki, Bakıda keçirilən bu yarış çox yüksək səviyyədə təşkil edilmişdir. Biz artıq bir həftədir ki, Bakıdayıq. Azərbaycan dostluğun nə olduğunu bizə göstərdi. Böyük qonaqpərvərliyə görə bütün Azərbaycan xalqına təşəkkür edirik.

Tədbirdə çıxış edən müdafiə naziri, general-polkovnik Səfər Əbiyev yarış iştirakçılarını və medal qazanan bütün idmançıları təbrik etmişdir.

Nazir bildirmişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, idmanda da böyük nailiyyətlər qazanmışdır. Zəngin idman ənənələri olan Azərbaycanın Olimpiya hərəkatında mütəşəkkil iştirakı, idmançıların göstərdiyi yüksək nəticələr respublikamızın bu sahədə potensial imkanlarını nümayiş etdirmişdir. Bu uğurlar həm də ölkəmizdə idmana dövlət qayğısının təzahürüdür. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə idman və bədən tərbiyəsi sürətlə inkişaf edir.

S.Əbiyev vurğulamışdır ki, indi Azərbaycan təkcə idman sahəsində uğurları ilə deyil, həm də mühüm beynəlxalq yarışların təşkilində nailiyyətləri ilə məşhurdur. Bir sıra beynəlxalq idman qurumları dünya səviyyəli yarışların bizim ölkədə keçirilməsinə tərəddüdsüz razılıq verirlər. Bu onu göstərir ki, həmin qurumlar Azərbaycanı etibarlı tərəfdaş hesab edirlər.

Günün final qarşılaşmalarında Azərbaycan idmançıları 6 qızıl medal qazanaraq komandamızı birinci yerə çıxarmışlar.

İdmançılarımızdan Ceyhun Abiyev (48 kq), Rəhim Nəcəfov (51 kq), Elşən İsmayılov (57 kq), Rahib Bəylərov (75 kq), Elnur Qədirov (81 kq) və Elçin Əlizadə (91 kq) görüşləri qələbə ilə başa vuraraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Digər qarşılaşmalarda isə qızıl medalları özbəkistanlı Tulaçboy Doniyarov (54 kq), Baxodir Mamacanov (60 kq), Bekzod Yunusov (69 kq), Sardor Abdullayev (91 kq-dan yuxarı) və fransalı Aleksis Vastine (64 kq) qazanmışlar.

Medalların sayına görə Azərbaycan komandası birinci, Özbəkistan komandası 2-ci, Hindistan təmsilçiləri isə 3-cü yeri tutmuşlar.

CİSM-in baş katibi, polkovnik Mişel Van Meurs Mərkəzi Ordu İdman Klubunun rəisi, polkovnik Natiq Əliyevə və onun müavini, polkovnik-leytenant Şamil Cəfərova "Ali zabit" medalı təqdim etmişdir.

Qalib idmançılara medalları gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru, Milli Məclisin deputatı Ağacan Əbiyev və digər rəsmi şəxslər təqdim etmişlər.

Xatırladaq ki, dünya çempionatında Azərbaycan idmançıları ilə yanaşı, Türkiyə, Ukrayna, ABŞ, Barbados, Belarus, Bolqarıstan, Əlcəzair, Fransa, Hindistan, İtaliya, Konqo, Qvineya, Latviya, Misir, Niderland, Özbəkistan, Sloveniya və Şri-Lanka boksçuları da mübarizə aparmışlar.

AzərTAc

SON SƏHİFƏ

ELNUR MƏMMƏDLİ İLİN İDMANÇISI ELAN OLUNMUŞDUR



Avropa Cüdo İttifaqı (EJU) Afinada keçirilən konfransında olimpiya çempionu Elnur Məmmədlini (73 kq) ilin ən yaxşı idmançısı elan etmişdir.

Elnur bu yüksək ada Pekində rəqibləri üzərində parlaq qələbəsinə görə layiq görülmüşdür. O, finalda dünya çempionu Ku Çin Vonqu 13 saniyəyə məğlub etmişdir.

EJU-nun prezidenti Sergey Soloveyçik Elnurun mükafatını və müvafiq diplomu Azərbaycanı Konqresdə təmsil edən milli Federasiyanın baş katibi Zaur Məmmədliyə təqdim etmişdir.

ZAHİDİN SEHRLİ MUSİQİ DÜNYASI VƏ YA BİR İXTİRANIN TARİXÇƏSİ

Zaqatala rayonunun Aşağı Tala kənd sakini Z.Mustafayev Azərbaycan musiqi mədəniyyəti tarixində ilk dəfə olaraq, milli elektron simli musiqi aləti ixtira etmişdir. "Oğuz" adlanan bu musiqi aləti 2004-cü ildə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyində qeydiyyata götürülmüş və Zahid Mustafayevin müəlliflik hüququ rəsmən təsdiqlənmişdir.

İlk baxışda gitaraya bənzəyən "Oğuz" əslində simli, nəfəsli və dilli musiqi alətlərinin səslərini özündə cəmləşdirən maraqlı bir çalğı alətidir. Zahiri görünüşcə milli üslubda, bayraq üzərində həkk olunmuş aypara və səkkizguşəli ulduz formasında hazırlanan bu alətin içərisinə radiotexnika və yarımkeçiricilərdən ibarət elektron sistem yerləşdirilmişdir. Məhz bu sistemin köməyi ilə "Oğuz" musiqi alətində müxtəlif çalğı alətlərinin səslərini ifa etmək mümkündür.

İxtira etdiyi musiqi alətinin üstünlükləri barədə AzərTAc-a məlumat verən Z.Mustafayev bildirmişdir ki, yeni çalğı alətini yaratmağa 20 ilə yaxın vaxt sərf etmişdir. Dünyada oxşarı olmayan bu alətin digərlərindən fərqi və üstünlüyü ondadır ki, indiyədək heç bir simli musiqi alətində nəfəsli və dilli musiqi alətlərinin səs tembrlərini almaq mümkün olmamışdır.

"Oğuz" musiqi alətində isə 20-dək çalğı alətinin səsini, istər ayrı-ayrılıqda, istərsə də bir neçə səsi eyni zamanda ifa etmək mümkündür. Bu aləti digər simli çalğı alətlərindən fərqləndirən əsas cəhətlərindən biri də ifaçının sağ əlini işlətmədən, yəni mizrabı simlərə toxundurmadan sol əlin barmaqları ilə alətin pərdələri üzərində gəzdirərək, istənilən musiqini asanlıqla ifa etməyin mümkün olmasıdır.

Musiqi alətinə "Oğuz" adının verilməsinin heç də təsadüf olmadığını, Azərbaycan xalqının çox qədim tarixə malik bir türk soyu olduğunu bildirən Z.Mustafayev, üzərində ay-ulduz həkk olunmuş bu çalğı alətinin nə vaxtsa dünyanın tanınmış ölkələrində, geniş konsert salonlarında səslənəcəyinə inamını da gizlətməmişdir. Müəllifin ən böyük arzusu bu alətin daha geniş miqyasda tanınması və gələcəkdə ondan kütləvi şəkildə istifadə edilməsinə nail olmaqdır.

MARAQLI MƏLUMATLAR

✱ *Bir il müddətində yerə düşən meteoritlərin çəkisi 30 milyon tona qədər olur. Bu rəqəm süni peykin köməkliyi ilə müəyyən edilib. Bu vaxta qədər elə hesab edirdilər ki, hər il yer üzərinə düşən meteoritlərin çəkisi min tondan bir qədər artıq olur.*

✱ *Bir ildə 300 milyon saniyə vardır.*

✱ *Böyük şəhərin 1 kub sm havasında 330-dan 1.540-a qədər bakteriya olur.*

✱ *İnsan bir gündə təqribən 20 min, bir ildə 7 milyon, 70 il ərzində isə 500 milyona qədər addım atır. Bu o deməkdir ki, insan ömrü boyu yer kürəsi ekvatoru boyunca 9 dəfə, yaxud Yerdən Aya qədər məsafəni qət etmiş olur.*

✱ *1929-cu ildə iki boksçu ringdə görüşürlər. Onlardan biri - Deni London lal və kar imiş. Yarış zamanı rəqibi onun başına güclü zərbə endirir. Bunun nəticəsində Deninin həm dili açılır, həm də eşidir.*

✱ *1959-cu ilin sentyabr ayında ABŞ-ın Viskonsin ştatında hindi qəbilələrindən birinin başçısı vəfat edir. Heç bir usta onun adını qəbir daşına yerləşdirə bilmir. Çünki onun adı 122 hərfdən ibarət idi.*

✱ *Məşhur ingilis astronomu Lemonye öz tələbəsindən-Lalanddan inciyərək: -Sizdən xahiş edirəm, bir Ay duyumunun yarım dövrü müddətində bizə gəlməyəsiniz-demişdi.*

Laland hesablamışdı ki, bu 9 il eləyir.

Hazırlayanı:
Nurlan MƏMMƏDRZAYEV,
İqtisadiyyat və menecment fakültəsinin tələbəsi

Uşaq dünyası

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

"Vətəni sevməyən insan olmaz, Olsa, ol saxsda vicdan olmaz."



Esmiralda "Dünya" məktəbinin ən nümunəvi şagirdlərindən biridir. Onu yaşıdlarından fərqləndirən fitri istedadı, düşüncə tərzi, maraq dairəsinin genişliyi, yaddaşıdır desək, səhv etmərik.

Esmiralda Şirinova 6-cı sinif şagirdidir. "Xəzər-Xəbər" jurnalında dərc olunan bir sıra yazıların müəllifidir. Yazıları həmişə düşündürücü olur, həmişə maraqla oxunur. Bu dəfə də kiçik qəlbində çırpınan Vətən sevgisini, Vətən harayını sizinlə bölüşmək qərarına gəldi...

Bu bir həqiqətdir ki, Abbas Səhhətin "Vətən" şeiri vətən mövzusunda yazılan əsərlərin ən gözəlidir. Mənə elə gəlir ki, şair burada yalnız vətəni tərənnüm etmir, daha çox vətən övladlarını düşünməyə çağırır.

A.Səhhətə görə, Vətəndən əziz, Vətəndən şirin sevgili yoxdur. Çünki o, bizi sinəsi üstündə bəsləyib, bizə duz-çörək verib.

Çünki, "Vətən əcdadlarımızın mədfənidir", yəni əbədi uyuduqları məzar yeridir.

Bax, elə bu fikirləri dilə gətirəndə gözümüzün qabağına düşmən tapdağı altında qalan İrəvan, Zəngəzur, Göycə mahalı, axarlı-baxarlı Qarabağ gəlir.

Mən hələ Şirvanşahların dəmir qapılı Dərbənd şəhərini demirəm.

Bəs həmin diyarlarda uyuyan Natəvanın, Vaqifin, Ələsgərin ....məzarları?!

Sanki bunları əvvəlcədən görürmüş kimi Abbas Səhhət davam edir: "Ölərəm əldən əgər getsə Vətən!"

Cənubi Azərbaycan İran mollalarının əsarəti altında inildəyir. Biz də öz torpaqlarımızı verə-verə kiçilirik. Minlərlə insan çörək dalınca Rusiyaya, Türkiyəyə, Avropaya üz tutub. Axı belə olmaz?! Yenə Abbas Səhhətin sözləri qulağımda cingildəyir: "Anadır hər kişiyə öz Vətəni."

Anaya, Vətənə belə biganə qalmaq olmaz axı! Həmişə öyündüyümüz anamız Tomrisin, qüdrətli Girdman dövlətini yaratmış Cavanşirin, uzun illər ərəb xilafətinə qarşı azadlıq mübarizəsi aparmış Babəkin, vahid Azərbaycan yaratmağa can atan Şirvanşah I İbrahimin, Fətəli xanın nəslinə belə soyuqqanlı olmaq yaraşmaz axı!

Biz məktəbliyik. Bizim Vətənə sevgimiz dərslərimizə münasibətdə ifadə olunur. Biz bu gün yaxşı oxumalıyıq ki, gələcəkdə Vətənimizi irəli apara biləcək insan kimi yetişək.

Inanıram, gün gələcək bütün Azərbaycana sahib olacağıq. Abbas Səhhətin "Vətəni sevməvən insan olmaz; Olsa ol şəxsdə vicdan olmaz!" kəlamlarını əməllərimizdə doğruldacağıq!!!

Esmiralda ŞİRİNOVA

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

İADƏ — beytin birinci misrasının sonuncu sözünün həmin beytin ikinci misrasının ilk sözü kimi işlənməsi.

İBARƏ — yazılı və şifahi nitqdə sadəlik və təbiilikdən uzaq, zahiri təmtəraq xatirinə işlədilən ifadə tərzi.

İDEALİZƏ — həyatı, insan surətini həqiqətdə olduğundan daha dolğun təsvir etmək, ideallaşdırmaq.

İDİLLİYA — antik yunan şeir növü. İdilliyada, əsasən, əkinçilərin, çobanların, balıqçıların həyatından bəhs olunur.

İDİOM — məxsus olduğu dildən digər dilə hərfən tərcümə edilə bilinməyən ifadə, söz birləşməsi. "Gözüm səndən su içmir" ifadəsində olduğu kimi.

İMPRESSİONİZM — XIX yüzilliyin sonunda Fransada meydana gəlmiş bədii cərəyan. Təsviri sənətdə xüsusi mövqeyi olmuşdur. İmpressionistlər həyatın tipik cəhətlərini yox, öz əhval-ruhiyyələrinə uyğun gələn cəhətlərin təsvirinə üstünlük veriblər.

İMPROVİZASİYA — bədahətən şeir qoşmaq, qabaqcadan heç bir hazırlıq aparmadan əsər yaratmaq; müəyyən əhvalat, hadisəyə əlbəəl şeirlə cavab vermək.

İNTAQ –"nitq" sözündən olub şəxsləndirmə deməkdir. Əşyaların bədii əsərdə danışdırılması intaq adlanır.

İNTERMEDİYA — hadisələri gərgin şəkildə inkişaf edən pyeslərin pərdələri arasında tamaşaçıların gülüb dincəlməsi üçün

oynanılan şən məzmunlu, zarafat səciyyəli kiçik tamaşa.

İNTONASİYA — danışıq tərzi, tələffüz xüsusiyyəti, səs tonunun ucalıb - alçalması. Danışanın sözə, ifadəyə vermək istədiyi konkret mənanı bildirməkdə intonasiyanın məxsusi rolu vardır. Bədii əsərlərdə cümlənin ahəngi, melodik quruluşu, ruhu müxtəlif olur. Bu cəhət intonasiya ilə təyin olunur. Cümlənin, söz və ifadənin intonasiyası sual, nida, kinayə, adi təhkiyə və s. səciyyə daşıyır.

İNTRİQA — bədii əsərdə iştirak edən surətlərin bir-birilə apardığı kəskin mübarizəni açıb göstərən mürəkkəb, dolaşıq hadisələr silsiləsi. Hadisələrin münaqişə şəklində inkişafı.

İNVERSİYA — cümlədə sözlərin adi qaydadan fərqli bir şəkildə düzülməsi ilə yaradılan bədii ifadə üsulu. İnversiya yolu ilə yaradılan misrada, yaxud cümlədə xəbər mübtədadan əvvəl, epitet təyin olunan sözdən sonra gəlir. Söz və ifadələrin inversiya yolu ilə yerdəyişməsi bədii dili daha güclü və təsirli edir.

İSTEHZA — bədii əsərdə mənfi, yaramaz hadisələri, tipləri ifşa məqsədi izləyən acı, zəhərli gülüş.

İSTİARƏ — müəyyən əşya, yaxud hadisə barədə qüvvətli təsəvvür yaratmaq üçün bunları başqa bir əşyanın, yaxud hadisənin ayrı-ayrı xüsusiyyətlərini bildirən məcazi ifadə ilə təsvir etmək.

İTHAF — bədii əsərin başlanğıcında verilib əsərin kimin şərəfinə və ya hansı münasibətlə yazıldığını bildirən qeyd. Orta yüzilliklərdə müəlliflər görkəmli şəxsiyyətlərə hörmət əlaməti olaraq, eləcə də hökmdarlardan mükafat almaq istəyi ilə ithafdan istifadə etmişlər.

JANR — ədəbiyyatşünaslıqda müxtəlif mənalarda işlənən termin: a) epos, lirika, dramaturgiya kimi ədəbi növlərə verilən ad (epik janr, lirik janr, dramaturji janr); b) ədəbi növlərə aid şəkillər: roman, poeziya, faciə və s.

JARQON — müəyyən sosial qrupun, zümrənin istifadə etdiyi özlərinə məxsus şərti danışıq, xüsusi sözlər və ifadə yığını.

JELDİRME — qazax poeziyasında xalq şeiri forması. İfadəcə cəld, güclü ahəngdarlıq səciyyəsi daşıyır.

JIR — qazax, qaraqalpaq, qırğız, tatar, başqırd ədəbiyyatında xalq şeiri forması. Kobiz və dombranın müşayiəti ilə ahəngdar olaraq ifa edilir. Deklamasiya şəklində də oxunur. Jır şəklində yaradılmış irihəcmli epik əsərlərdə, adətən, ümumi qafiyə ilə birbirinə bağlanmış ayrı-ayrı dördlüklər, yeddiliklər olur. Şeir çox vaxt birnəfəsə oxunur.

JURNAL — kitab formasında nəşr olunan dövri ədəbi məcmuə. Həftəlik, aylıq, rüblük olur.

JURNALIST — jurnalistika ilə məşğul olan peşəkar ədəbi işçi.

JURNALİSTİKA — aktual informasiyanın toplanması, işlənməsi ilə məşğul olub, mətbuat, nəşriyyat, radio, televiziya, kino və s. vasitələrlə yayılan ictimai-ədəbi fəaliyyət növü. Kütləvi təbliğat, təşviqat vasitəsi.

Hazırlayanı:
Bəhlul ABDULLA


KİTABXANAMIZIN YENİ KİTABLARI



"İslami Birlik" konfransının materialları. – Bakı: Nurlar, 2008. – 236 s. – ISBN 9952-426-15-3



Cultures and contexts matter: understanding and preventing HIV in the Pacific. – Manila, Philippines: Asian Development Bank, 2007. – 155 p. – ISBN 978-971-561-618-8




Əbilov A. Dünyanın kulturoloji dərki. – Bakı: Mütərcim, 2008. – 123 s.



Khalilov S. Philosophy, science, culture: their peculiarities in the East and the West. – Stockholm, CA&CC Press, 2008. – ISBN 978-91-976993-2-7



Qasımov C. Azərbaycanın təhlükəsizlik orqanlarının qısa tarixi (dərslik) / C. Qasımov, X. Bağırov. – Bakı: MTN-in nəşriyyatı, 2008. – 492 s. – ISBN 978-9952-443-02-8



Qərani İ. Min bir rübai. – Bakı: Nurlan, 2008. – 352 s.



Performance Management. Exam Kit June 2007. Paper 3.3. – Berkshire: Publishing Foulks Lynch, 2006. – 288 p. – ISBN 1-84390-899-9



Seyidov M. Zamanın nəbzi: poema = The pulse of the time. – Novosibirsk: Mangazeya, 2008. – 344 s. – ISBN 5-8295-0555-6



Viswanathan S. Learning from the poor: findings from participatory poverty assessments in India / S. Viswanathan, R. Srivastava. – Manila, Philippines: Asian Development Bank, 2007. – 154 p.

Hazırlayanı: Lyudmila SOTOVA

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org